

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Dünyanın nüfuzlu media orqanları Qarabağda "humanitar fəlakət"lə bağlı yalanları ifşa edir!




3


# SƏS

№ 131 (6814)

27 iyul 2023-cü il.
Qiyməti 60 qəpik


## Sərhəd tanımayan Azərbaycan-Türkiyə qardaşlığı!



5

*İLHAM ƏLİYEV: "Pezident Ərdoğan ilə şəxsi dostluğumuz regional inkişaf və sabitlik baxımından çox mühüm faktordur"*

# İrəvanın real vəziyyəti: günah kimdədir?



*Ermənistan müxalifəti və hökuməti, əslində, eyni xəstə təxəyyülə bağlıdırlar*

11

## "Hindistanın Ermənistana öldürücü silahlar tədarük etməsi vəziyyətin gərginləşməsinə yol açır"



3

## AXCP və bir haya bənd məsələsi...



11

## Sosialyönümlü dövlət modeli



10

## Arxivə göndərdiyimiz qəzet janrları

*Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin müəllimi, hamımızın sevimlisi olmuş mərhum professor Famil Mehdi mətbuat janrlarının ümumi mənzərəsini bu cür xarakterizə edirdi: xəbər, hesabat, müsahibə, reportaj, korrespondensiya, məqalə, icmal, resenziya, məktub, mətbuat xülasəsi, zarisovka, oçerk, felyeton, pamflet və təmsil, şarj, parodiya.*



8

## Cərimələrin artırılması hansı dəyişikliyə səbəb olacaq?

*Prezident İlham Əliyev 17 iyul tarixində İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliyi təsdiqləyib. Bu dəyişikliyə əsasən yol-hərəkəti qaydalarının pozulmasına görə cərimələrin miqdarı artırılıb.*



16

# “Şimal” Elektrik Stansiyasının yeni estakadasının və su nasos stansiyalarının açılışı olub





## Prezident İlham Əliyev açılışda iştirak edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin “Şimal” Elektrik Stansiyasının yeni estakadasının, su nasos stansiyalarının və “Şimal” Kiçik Su Elektrik Stansiyasının açılışında iştirak edib. Əvvəlcə ölkəmizdə su elektrik stansiyaları ilə bağlı həyata keçirilən işlər barədə videoçarx nümayiş olundu.***

“AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, son 20 ildə Xəzər dənizində suyun səviyyəsinin iki metrə yaxın aşağı düşməsi ölkənin ikinci böyük elektrik stansiyası olan və Bakının 40 faizdən artıq ərazisini elektrik enerjisi ilə təchiz edən, ümumi gücü 800 MVt olan “Şimal” Elektrik Stansiyasının işində ciddi çətinliklər yaratmışdı. Çünki suyun səviyyəsinin gündən-günə aşağı düşməsi stansiyanın soyutma suyu ilə təchiz olunmasında ciddi problem yaradırdı və ən böyük həcmdə enerji istehsal edən “Şimal-1” və “Şimal-2” Elektrik stansiyalarının yaxın perspektivdə fəaliyyətini tamamilə dayandırması qaçılmaz idi. Bu təhlükəni aradan qaldırmaq üçün təxirəsalınmaz şəkildə “AzərEnerji” ASC tərəfindən Xəzər dənizinin içərisinə doğru soyuq suyun 8 metr dərinlikdən götürülməsinə imkan verən 540 metr uzunluğunda estakada və 2 yerdə su nasos stansiyası tikilib. Estakadanın möhkəmliyini təmin etmək məqsədilə hər birinin uzunluğu 30 metr olan 1000 ədəd dəmir boru svay 20 metr dənizin dibinə vurulub və betonlanıb.




Qeyd edildi ki, hazırda hər birinin məhsuldarlığı 9000 kubmetr/saat olan 8 nasosdan 2-si ehtiyatda saxlanılmaqla 6 ədədi daim işlək vəziyyətdə olur. Bununla da nasoslar vasitəsilə dənizin 8,5 metr dərinliyindən götürülən aşağı temperaturda 54 min kubmetr su mövcud kanala vurulur.

Stansiyalarda SCADA sistemi tətbiq edilərək, nasos və klapanların avtomatik idarə olunması və rəqəmsal mühafizəsi üçün nəzarət-ölçü cihazları, lokal idarəetmə panelləri, “PLC” idarəetmə sistemi quraşdırılıb. Həmçinin bu idarəetmə sistemi mərkəzi idarəetmə otağındakı monitorlara inteqrasiya edilib ki, bu da nasosların məsafədən işə qoşulmasına və açılmasına, avadanlıqların iş rejimlərinə nəzarət və tənzimlənməsinə, kanalda suyun səviyyəsinə nəzarətə, şandorun avtomatik açılıb-bağlanmasına şərait yaradır. Prezident İlham Əliyevə “Şimal” Kiçik Su Elektrik Stansiyası haqqında da məlumat verildi.







Diqqətə çatdırıldı ki, Bakının Şüvəlan qəsəbəsində yerləşən, ümumi gücü 800 MVt olan “Şimal” Elektrik Stansiyasının ərazisində “AzərEnerji” ASC tərəfindən daha bir yenilik edilərək, istifadə olunub dənizə axıdılan soyutma suyunun üzərində 300 kVt-lıq kiçik su elektrik stansiyası tikilib. Kiçik su elektrik stansiyasının tikintisi yerli mütəxəssislər tərəfindən aparılıb. Bu stansiya vasitəsilə il ərzində 2,5 milyon kilovat-saata yaxın elektrik enerjisi istehsal ediləcək ki, bu da “Şimal-1” və “Şimal-2” elektrik stansiyalarının təsərrüfat ehtiyaclarını ödəməklə daxili tələbatına sərf olunacaq. Nəticədə bu günə qədər “Şimal” Elektrik Stansiyasının daxili tələbatına sərf olunan elektrik enerjisi qənaət edilərək ümumi sistemə ötürüləcək.

# Dünyanın nüfuzlu media orqanları Qarabağda “humanitar fəlakət”lə bağlı yalanları ifşa edir!







***Bir çox xarici KİV-lər Laçın yolu ilə bağlı vəziyyət və Qarabağ separatçılarının regionda guya “humanitar fəlakət” barədə yalan bəyanatlarını ifşa edən materiallar dərc edirlər. Məqalələrdə Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərimizə humanitar yüklərin çatdırılması imkanı barədə Avropa İttifaqının bəyanatından sonra separatçı rejiminin artan spekulyasiyalarına xüsusi diqqət yetirilir.***







Bu barədə xüsusilə Rumıniyanın “DIGI24” və Bolqarıstanın “sofiaglobe” nəşrləri, eləcə də Ukraynanın “ukranews.com” portalında ətraflı bəhs olunub. Həmin nəşrlərdə yayımlanan və siyasi icmalçı Svetlana Kuşnirin müəllifi olduğu məqalədə deyilir ki, Qarabağda separatçılar “Aİ-nin Azərbaycanın Qarabağ bölgəsinin erməni anklavına humanitar yüklərin çatdırılması üçün əlavə yolun açılması haqqında bəyanatından sonra” humanitar marşrutu bağlayıblar.

Müəllif qeyd edir ki, Avropa Şurasının Prezidenti Şarl Mişel Bakının Azərbaycanın Ağdam şəhəri vasitəsilə Qarabağın erməni əhalisinə humanitar yardımın çatdırılmasını təşkil etmək niyyəti barədə bildirib. Materialda deyilir: “Şarl Mişelin Azərbaycanın əlavə marşrut açmağa hazır olması barədə bəyanatına cavab olaraq “Artsaxın təhlükəsizliyi və inkişafı cəbhəsi” rusiyapərəst hərəkatının nümayəndələri iyulun 18-də Ağdamdan Xankəndiyə gedən yolu beton bloklarla bağlayıb, burada “aclıq və humanitar fəlakət”in hökm sürdüyünü bildirirlər. Bu bəyanatlar Xankəndidə korporativ məclislər üçün asanlıqla ət, balıq, pendir, desertlər sifariş etdiyini deyən ukraynalı deputat Vladimir Kreydenkonun araşdırması ilə təkzib edilir”.

Latviyanın “La.lv” portalı isə öz növbəsində oxucuların diqqətini “Artsaxın təhlükəsizliyi və inkişaf cəbhəsi” adlandırılan qurumun rusiyalı oliqarx Ruben Vardanyan tərəfindən təsis edilməsinə yönəldir. Bu barədə Ukraynanın “Censor”, “Politeka.net”, “Ukranews” və “Kr” kimi xəbər saytları da xəbər verir. “Kr” bildirir ki, “Kreml Ukrayna Donbası, Gürcüstan Cənubi Osetiyası və Moldova Dnestryanı ssenarisi üzrə Qarabağda Ermənistan-Azərbaycan münaqişəsini dondurmağa çalışır. O, yalnız bu yolla öz mövqelərini, o cümlədən Cənubi Qafqazda və Şərqi Avropadakı hərbi mövcudluğunu qoruyub saxlaya biləcək”.

Nəşrlərdə qeyd edilir ki, “Rusiyanın separatçı anklavların köməyi ilə nəzarətə götürməyə çalışdığı digər postsovet ölkələrində olduğu kimi, Ermənistan-Azərbaycan danışıqlar prosesində də əsl vasitəçi Aİ və ABŞ-dır”.

“Sülh sazişinin bağlanması Rusiya Prezidenti Vladimir Putini Cənubi Qafqazdakı mövqeyindən məhrum edəcək və İrəvanın son olaraq Qərbə yönəldirilməsinə töhfə verəcək”, – deyə Svetlana Kuşnir “Ukranews”da dərc olunmuş məqaləsində yazır.

ABŞ-ın nüfuzlu “The Washington Times” qəzetində dərc olunan məqalənin müəllifi də bu fikirlə şərikdir. Məqalədə qeyd olunur: “Rusiya Cənubi Qafqazda etnik münaqişə ocaqlarının sönməməsi üçün AzərbaycanınQarabağdakı erməni azlığını manipulyasiya etməyə çalışır”.

Öz növbəsində, ingilis dilində nəşr olunan Rumıniyanın “Romanian Newsweek” həftəlik jurnalı vurğulayır: “Bu, [erməni separatçılarından Qarabağda istifadə olunması] Moskvaya Cənubi Qafqazda hərbi mövcudluğunu saxlamağa imkan verir”.

Gürcüstanın “Primetime” və “Nyushub” nəşrləri ona diqqət çəkirlər ki, Moskvadan fərqli olaraq Avropa İttifaqı Cənubi Qafqazda sülhdə maraqlıdır. Çünki Avropa İttifaqı regional nəqliyyat marşrutları, xüsusən də Zəngəzur dəhlizi vasitəsilə Rusiyadan yan keçməklə Çinə birbaşa tranzit imkanı əldə edəcək. Eyni mövzuya “Moldova-1” televiziya şousunun buraxılışında da toxunulub. Burada bildirilir: “Bu dəhlizin açılması Avropa İttifaqına Rusiyadan yan keçməklə, Türkiyə, Azərbaycan, Xəzər dənizi və Mərkəzi Asiya vasitəsilə Çinlə birbaşa nəqliyyat əlaqəsi yaratmağa imkan verəcək”.

Avropa və ABŞ KİV-lərində qeyd edilir ki, bu, həmçinin Azərbaycana Avropa İttifaqının əsas enerji tərəfdaşına çevrilməsinə, Avropaya isə Rusiya qalıq yanacağından məhrum olmağı kompensasiya etməyə imkan verəcək.

# “Hindistanın Ermənistana öldürücü silahlar tədarük etməsi vəziyyətin gərginləşməsinə yol açır”

***Prezidentin köməkçisi-Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Hindistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Sridharan Madhusudhanan ilə görüşüb.***



AZƏRTAC xəbər verir ki, görüşdə Hikmət Hacıyev Ermənistan ilə Hindistan arasında hərbi əməkdaşlığın dərinləşməsi və bu xüsusda son günlər mediada Hindistan istehsalı olan silah sistemlərinin İran vasitəsilə Ermənistana daşınması barədə foto və videoların yayılmasının Azərbaycan tərəfində narahatlıq doğurduğunu bildirib.

Prezident Administrasiyasının rəsmisi vurğulayıb ki, Azərbaycanın Ermənistanla sülh sazişi üzrə danışıqlar apardığı bir vaxtda Hindistanın bu ölkəyə öldürücü silahlar tədarük etməsi Ermənistanın militarizasiyasına və vəziyyətin gərginləşməsinə yol açır və Cənubi Qafqaz regionunda davamlı sülhün və təhlükəsizliyin bərqərar olmasına maneələr törədir. Bu, həm də Hindistanın özünün bəyan etdiyi beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan xarici siyasəti, eləcə də bu ölkənin də təmsil olunduğu Qoşulmama Hərəkatının tarixi “Bandunq prinsipləri” ilə uyğun gəlmir.

Hikmət Hacıyev Hindistan səfirini Azərbaycan tərəfinin ciddi narahatlığının rəsmi Dehlinin diqqətinə çatdırmağa və Hindistanı Ermənistana öldürücü silahların tədarükü ilə bağlı qərarını bir daha nəzərdən keçirməyə çağırıb.

Hindistan səfiri Azərbaycan tərəfinin qaldırdığı məqamın aidiyyəti üzrə çatdırılacağını bildirib və ikitərəfli münasibətlərdə narahatlıq doğuran məsələlərin müzakirəsi üçün iki ölkə arasında dialoqun aparılmasının vacibliyini qeyd edib. Hikmət Hacıyev Azərbaycanın Hindistan ilə dialoqa hər zaman açıq olduğunu bildirib.

# Qərbin siyasi riyakarlığı





***Qərb siyasətçilərinin bəyanatlarındakı eyhamlardan belə görünür ki, ATƏT-in Minsk Qrupunu dirçəltmək üçün müəyyən cəhdlər edilir. Qərb, o cümlədən ABŞ yenə də həmin o ATƏT-in Minsk Qrupunu, fəaliyyəti boyunca heç bir iş görməyən, yaxud görə bilməyən, uğursuzluğu, nəticəsiz fəaliyyəti sayəsində, belə demək mümkünsə, ölmüş, hətta tarixin qəbiristanlığında basdırılmış bir qurumu "diriltmək" niyyətində görünür. Əsrin üçdə birinə yaxın müddət ərzində Ermənistanın işğalçılıq siyasətinə qarşı çıxmayan, Azərbaycan ərazilərinin işğaldan azad edilməsi istiqamətində heç bir əməli fəaliyyət sərgiləməyən, münaqişənin həllinə zərrə qədər təsir etməyən, nəticədə də lazımsız bir quruma çevrilən ATƏT-in Minsk Qrupunun fəaliyyətini bərpa etmək niyyəti Qərbin siyasi riyakarlığının təzahürüdür.***





Azərbaycan ərazilərinin Ermənistan tərəfindən uzunmüddətli işğalı dövründə fəaliyyətsiz qalan və nəticədə Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində bir addım irəliləyişə kömək belə etməyən bir qurumun, yəni həmin o ATƏT-in Minsk Qrupunun faydasızlığı aksiom hesab olunur və bunun isbata ehtiyacı belə yoxdur, çünki hər şey göz önündə olub. Göz önündə o olub ki, BMT Təhlükəsizlik Şurasının erməni hərbi birləşmələrinin Azərbaycan ərazilərindən çıxarılmasını tələb edən qətnamələrinə əməl etməyə rəsmi İrəvanı məcbur etmək üçün həmin o ATƏT-in Minsk Qrupu lazımi təzyiq belə göstərə bilmədi, yaxud göstərmədi. Sual oluna bilər ki, indi belə bir qrumun dirçəldilməsi, dirildilməsi kimin nəyinə lazımdır? Köbud şəkildə desək, bu qurumun, məhz ATƏT-in Minsk Qrupunun məsələlərə bundan sonra burnunu soxmasına nə ehtiyac var? Axı Azərbaycan BMT-nin qətnaməsinə müvafiq olaraq, məsələni ATƏT-in Minsk Qrupunun yuxusuna belə girməyəcək müddətdə özü həll edib, ərazilərini işğaldan azad edib, ərazi bütövlüyünü özü təmin edib. ATƏT-in Minsk Qrupu, həmin qrupun ABŞ, Fransa və Rusiya kimi guya vasitəçi sayılan həmsədr ölkələri bir neçə ildir Azərbaycanın böyük coşqu ilə Zəfər Gününü qeyd etdiyini də görə bilməyibmi? Əgər bunu da olsa görüblərsə, bilməlidirlər ki, bizə "toydan sonra nağara" nazım deyil.

Ara-sıra Qarabağ münaqişəsinin həllinin zəruriliyi barədə fikir bildirən, özü də konkret şəkildə ünvanlanmayan deklarativ bəyanatlarla 30 il müddətində baş girələyən bir qurumun, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin həmin dövr ərzində bölgəyə səfərlərinin də eyni ilə turist səfərlərinə bənzədiyini həmsədrlər özləri hamıdan yaxşı bilirlər. Münaqişənin mahiyyətinə onillər ərzində varmadan, işğalçı ilə işğala məruz qalan arasında fərq qoymadan həmin illər ərzində fəaliyyət göstərdiyini iddia edən, əslində isə, fəaliyyətsizliyi dəfələrlə özünü biruzə verən bir qurum tarixin arxivinə yazıldığı halda, onun barədə spekulyasiyalar belə yersiz və mənasızdır. Tarixin arxivində toz-torpaq basımış bir qurumu elə həmin o arxivdən çıxarmaq niyyəti belə heç bir halda xoş niyyət kimi görünmür. Qərbin bu niyyətinin arxasında yaxşı halda, öz maraqları dayana bilər, hansı ki, bunlar Azərbaycan üçün heç də maraqlı deyil. Azərbaycan üçün heç bir əhəmiyyər kəsb etmətən maraqların təmin edilməsi cəhdləri isə siyasi riyakarlıqdan başqa bir şey ola bilməz. BMT Nizamnaməsi və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında işğala və erməni təcavüzünə son qoymaq üçün beynəlxalq birlikdən mandat verildiyi halda, onillər ərzində heç bir tədbir görməyən bir qurum, yəni ATƏT-in Minsk Qrupu indiki durumda, Azərbaycanın yaratdığı yeni reallıqlar fonunda ümumiyyətlə, lazımsızdır.

İkinci Qarabağ Müharibəsi və əldə etdiyi qələbə ilə Azərbaycan Qarabağ problemini hərbi yolla müstəqil şəkildə həll etdikdən sonra ATƏT-in Minsk Qrupunun formal olan mövcudluğuna belə ehtiyac qalmadı və qeyd edək ki, 2020-ci il 12 dekabr tarixində Azərbaycan Prezidenti cənab İlham Əliyev ATƏT-in Minsk Qrupunun həmsədrlərinə bunu xatırladıb. "Buraya gəlmək sizin ideyanız olub. Bunu bir daha kameralar qarşısında təkrar edə bilərəm ki, Minsk Qrupunu səfərə dəvət etməmişəm. Lakin Minsk Qrupunun nümayəndələrinin gəlmək istəməsi barədə mənə bildirildikdə, etiraz etmədim. Bəlkə mənə deyəcək nə isə var. Bunu kameralar qarşısında etmək istəyirsinizsə, söyləyin", deyə Azərbaycan Prezidenti bildirib. Ölkə rəhbərimizin dedikləri əslində, həmin qurum üçün, Minsk Qrupunun nümayəndələri üçün ən kəskin və layiqli cavab sayılır, hansıki bundan öz nəticələrini çıxarmalı idilər. Nəticə çıxarmalı idilər ki, ATƏT-in Minsk Qrupu arıq ən azından Azərbaycan üçün ölü bir qurumdur. Elə isə, indi həmin qurumu Qərbin bir daha gündəmə gətirmək istəməsi ölünü diriltmək kimi görünür və buna da siyasi riyakarlıqdan başqa ad vermək olmur.

Onu da qeyd etmək yerinə düşərdi ki, ötən il Rusiya-Ukrayna müharibəsi və eləcə də Rusiya ilə Qərb arasında qarşıdurma başlayandan sonra ATƏT-in Minsk qrupunun formal mövcudluğu barədə hətta danışmaq da gülünc səslənir. Hətta Moskvanın məhz Paris və Vaşinqton əleyhinə çıxış edərək, onları məhv olmaqda olan ATƏT-in Minsk Qrupunu tamamilə məhv etməkdə ittiham etməsindən sonra sözügedən həmin o formal qurum barədə spekulyasiyalar belə absurddur. 2022-ci ilin noyabrında ABŞ Senatının Xarici Əlaqələr Komitəsində dinləmələr zamanı Dövlət Departamentinin Cənubi Qafqazda danışıqlar üzrə xüsusi nümayəndəsi Filip Riker tərəfindən ATƏT-in Minsk Qrupunun "ölümü", yəni, məhv olması barədə bəyənatı da yaddadır. Amma məsələ burasındadır, Riker qeyd edib ki, ABŞ-ın fikrincə, həmsədrlərin qarşılıqlı fəaliyyəti dayandırılsa da, ATƏT-in Minsk Qrupunun mandatının özü hələ də faydalıdır. "Minsk qrupu, məlum olduğu kimi, fəaliyyət göstərmir. Mandat və məqsədlər isə hələ qalır", deyən Riker, bununla, mahiyyətcə artıq ölü sayılan bir qurumu sözsüz ki, diriltmək ehtimalına da işarə edirdi. İndi Qərbin həmin o ölü sayılan qurumu diriltmək niyyəti məsələnin nə yerdə olduğunu, çirkin məqsədləri tam şəkildə ifşa edir. Aydın olur ki, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən, əslində isə bu günə qədər ATƏT-in Minsk Qrupu ilə bağlı illüziyalarından əl çəkməyən, hər fürsətdə həmin ölü qurumu danışıqlar prosesinə cəlb etməyə çalışan Ermənistanla Qərb eyni oyun oynamaq fikrindədir, hansıki bunun da adı ikiüzlülük və siyasi riyakarlıqdır.

Ən maraqlı məqam isə, hal-hazırda Rusiya və Qərbin sözün əsl mənasında ziddiyyətdə olduğu, hətta nüvə müharibəsi təhlükəsi barədə proqnozların yayıldığı bir zamanda bu "ölü" qurumun yada düşməsidir. Təəccüblüdür, bir-biri ilə düşmən mövqedə, müharibə və qarşıdurma vəziyyətində olanlar Ermənistandan, Ermənistan-Azərbaycan münaqişəsinin həllindən söhbət gedəndə düşmənçiliklərini unutdular, yoxsa qarşıdurma heç nəzərə də alınmadı? Ukraynadakı müharibə və bununla bağlı münaqişənin, ən kəskin sanksiyaların, hədələrin, düşmənçiliyin fonunda Fransa, ABŞ və Rusiyanın ATƏT-in Minsk qrupu çərçivəsində əməkdaşlığı bərpa etməyə hazırlaşması həqiqətən çox iyrənc bir görüntü ortaya çıxarır. Bütün bunlar Qərbin Azərbaycana qarşı ikiüzlü siyasətini və ölkəmizin 30 ilə yaxın işğalla üzləşdiyi dövrdə ikili standartların mövcudluğunu bir daha təsdiqləyir. İndi siyasi riyakarlıq nümayiş etdirən Qərb bunu təkcə Azərbaycana qarşı etmir, Ukraynaya qarşı da edir. Son əsgərinə qədər vuruşmağı Kiyevdən tələb edən, bu tələbi fonunda əks-hücum əməliyyatları zamanı Ukraynaya çox lazım olan silahların çatdırılmasını süni şəkildə gecikdirən Qərbin indi də həmin dövlətlə müharibə şəraitində olan ölkə ilə, düşməni ilə ATƏT-in Minsk Qrupu çərçivəsində əməkdaşlığı bərpa etmək niyyətinə siyasi riyakarlıq demək də azdır. Bunun daha iyrənc adı olmalıdır və bu adı Qərb öz ikiüzlülüyü ilə artıq çoxdan qazanıb.

Sözsüz ki, ATƏT-in Minsk Qrupu bizə sözün əsl mənasında kökünə qədər tanışdır və bu qurumun "nə" olduğunu Azərbaycan ictimaiyyəti də, dövləti də çox yaxşı bilir. Onu da bilir ki, ATƏT-in Minsk Qrupunu dirçəltmək üçün bütün cəhdlər onsuz da uğursuzluğa məhkumdur. Hər bir halda, rəsmi Bakı nə Qərbin, nə də Rusiyanın çirkin oyunlarında iştirak etməyəcək və ATƏT-in Minsk Qrupunun bərpası cəhdi, ölkəmizə qarşı yeni vahid cəbhənin yaradılması bizim üçün qəbuledilməzdir. Qarabağ problemi deyilən məsələ artıq keçmişdə qaldı və bu məsələni öz gücü, öz qüdrəti, öz potensialı ilə, həmrəyliyi ilə müstəqil şəkildə həll edən Azərbaycan xalqı bu məsələdə də həmrəydir və bizə ATƏT-in Minsk Qrupu heç lazım da deyil. Bununla belə, artıq çılpaq şəkildə özünü biruzə verən Qərb siyasi riyakarlığı da növbəti dəfə ifşa olundu və belə riyakarlıq nümayiş etdirənlərin diriltmək istədikləri ölü qurumun da, ATƏT-in Minsk Qrupunun da riyakarlığı təəccüb doğura bilməz və belə riyakarlar bizdən uzaq olmalıdırlar.

***İnam Hacıyev***



# Sərhəd tanımayan Azərbaycan-Türkiyə qardaşlığı!

***Bəli, bu gün Türkiyə və Azərbaycan liderlərinin qardaşlığı, iki dövlət bir yumruq həmrəyliyi birliyi, dar gündə, xoş gündə bir yerdə olması sarsılmaz birliyinin əyani təzahürüdür. Çünki Azərbaycan və Türkiyə münasibətləri maraqlara deyil, dəyərlərə əsaslanır. Bu sərhəd tanımayan qardaşlıq birliyidir. Və hər iki qardaş dövlətlərin liderləri və xalq bir daha dünyaya nümayiş etdirdi ki, bu sarsılmaz qardaşlıq birliyi təkcə dövlətlərarası səviyyədə deyil, dövlət başçıları səviyyəsində deyil, insanlar səviyyəsində də əsl qardaşlıq əlaqələrinin təsdiqidir və bu bütün dünya üçün bir nümunədir.***

## *İLHAM ƏLİYEV: "Pezident Ərdoğan ilə şəxsi dostluğumuz regional inkişaf və sabitlik baxımından çox mühüm faktordur"*

Öz maraqları üçün min oyunlar oynayan, hər cür addımlara gedən, mənəviyyatsızlıqları sərhəd tanımayan xarici siyasi dairələr qarşısına Azərbaycan və Türkiyə Prezidentləri bu dəyərlərin gücü ilə çıxırlar, onlara öz yerlərini göstərirlər. Bu iki liderin uca şəxsiyyətinə, mənliyinə, mənəviyyatına, dəyərlərə bağlılığına yaraşan da elə məhz budur! Çünki Azərbaycan xalqı bu sarsılmaz birliyin qüdrətinə 44 günlük şanlı Vətən müharibəsində gördü və bütün dünya bir daha şahid oldu. Və qələbədən də sonra Türkiyə həmişə olduğu kimi, yenə də haqq işimizi müdafiə edərək Qarabağın azadlığa qovuşdurulmasında Azərbaycana həm mənəvi, həm də siyasi dəstək oldu. Həmin dövrdə nə qədər beynəlxalq təzyiqlərlə qarşılaşsa da, qardaş ölkə bu mövqeyindən bir addım da geri çəkilmədi, daim Azərbaycanın yanında oldu.

### "BU, ÇOX GÖZƏL TƏMƏLDİR VƏ BİZİM ÖLKƏLƏRİMİZ MƏHZ BU TƏMƏL ÜZƏRİNDƏ İNKİŞAF EDİR VƏ BİR-BİRİNİ DƏSTƏKLƏYİR"

İyulun 21-də Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında söyləyib ki, bizim Prezident Rəcəb Tayyib Ərdoğanla şəxsi dostluğumuz təkcə regionda deyil, dünyada məlum bir faktordur. Bu, regional inkişaf və sabitlik baxımından da çox mühüm bir faktordur.

Türkiyə ilə Azərbaycan xalqları arasında da münasibətlərin uzunmüddətli dostluq və qardaşlıq əlaqələri üzərində qurulduğunu vurğulayan dövlətimizin başçısı deyib: "Bu, çox gözəl təməldir və bizim ölkələrimiz məhz bu təməl üzərində inkişaf edir və bir-birini dəstəkləyir".

Bu real faktordur ki, güclü ölkənin gücü, qətiyyətli lideri də güclü olur. Böyük mütəfəkkir Viktor Hüqo vaxtilə yazırdı: "Əsl Liderin ömrünün yarısı Vətənə, digər yarısı da xalqa xidmət etməkdən ibarətdir".

Bəli, bu gün tarixi sınaqlardan çıxmış Güclü Azərbaycan - Güclü Türkiyə liderlərinin örnək qardaşlıq birliyi bütün dünyanın diqqətindədir. Sözsüz ki, bu danılmaz faktordur ki, Azərbaycan ilə Türkiyə arasında əlaqələrin böyük tarixi var. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr. Ən əsas amil isə ən çətin anlarda bir-birinin yanında olmaq.

Türkiyə-Azərbaycan sınaqlardan çıxmış qardaşlıq birliyi, ulu öndər Heydər Əliyevin söylədiyi "Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir" və böyük öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", - kəlamları yaşadığımız günlərdə bir daha tarixləşdi, toplumun bütün kəsimləri tərəfindən bəyənilən, uşaqdan-böyüyə hər kəsin dilinin əzbəri olan, istər sosial şəbəkələrdə, istərsə də cəmiyyət həyatının hər hansı bir sahəsində ən çox işlədilən ifadəyə çevrildi. Və bu gün bu iki güclü Liderlərin şad gündə, dar gündə bir-birinin yanında olması bir daha dünyaya nümayiş etdirdi ki, Azərbaycan və Türkiyə bundan sonra da bir olacaq. Çünki Azərbaycan-Türkiyə birliyi əbədi və sarsılmazdır.

### "İKİNCİ QARABAĞ MÜHARİBƏSİNİN İLK SAATLARINDAN TÜRKİYƏ RƏHBƏRLİYİ VƏ XALQI BİZİMLƏ ÇİYİNÇİYİNƏ DAYANMIŞDI"

Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında bildirib ki, biz 44 günlük İkinci Qarabağ müharibəsində bu birliyin ən yüksək zirvədə olduğunu bir daha gördük: "İkinci Qarabağ müharibəsinin ilk saatlarından Türkiyə rəhbərliyi ilə xalqı bizimlə çiyinçiyinə dayanmışdı. Prezident Ərdoğanın Qarabağ müharibəsinin ilk saatlarında verdiyi bəyanat ki, Azərbaycan yalnız deyil, - bu, bizim üçün çox böyük dəstək idi".

Prezident İlham Əliyev forumda çıxışında bir daha vurğulayıb ki, biz bütün 44 gün ərzində həmin o mənəvi dəstəyi qardaşlarımızdan hiss etdik: "Prezident Ərdoğan bir neçə dəfə ictimai şəkildə Türkiyənin mövqeyini bəyan etdi və digər dövlət rəsmiləri də bu məsələ ilə bağlı fikirlərini bildirdilər. Bu, bizim üçün çox böyük mənəvi və siyasi dəstək idi".

### ""ŞUŞA BƏYANNAMƏ"Sİ BİZİM QARŞIMIZDA YENİ ÜFÜQLƏR AÇIR"

"İkinci Qarabağ müharibəsində Qələbədən sonra Azərbaycan və Türkiyə defakto mövcud olan münasibətləri rəsmiləşdirdi və biz bunu məşhur Şuşa Bəyannaməsini imzalayaraq müttəfiqlik səviyyəsinə qaldırdıq". Bu fikri iyulun 21-də Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında deyib.

Dövlətimizin başçısı Şuşa Bəyannaməsinin əhəmiyyətini vurğulayaraq deyib: "Bu, bizim xalqlarımız və ölkələrimiz üçün çox böyük nailiyyətdir, böyük sərvətdir. Həmin bəyannamə bizim qarşımızda yeni üfüqlər açır".

Bəli, iki il əvvəl, 2021-ci il 15 iyun tarixində Şuşada imzalanmış Bəyannamə iki qardaş ölkənin münasibətlərini yeni müstəviyə çıxaran tarixi və siyasi önəm kəsb edən müttəfiqlik haqqında hüquqi sənəddir. Bəyannamədə 100 il bundan əvvəl imzalanmış tarixi Qars müqaviləsinə istinad edilir. Ən əsası isə "Şuşa Bəyannaməsi" ilə Türkiyə açıq şəkildə Azərbaycanın ərazi bütövlüyünün pozulması, dövlət sərhədlərinə təhdid kimi halların baş verməsi halında, ordu ilə ölkəmizin yanında yer alacağını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır.

Bu gün Azərbaycan-Türkiyə münasibətləri özünün ən yüksək zirvəsindədir. Yenidən Türkiyə Prezidenti seçilmiş Rəcəb Tayyib Ərdoğanın ilk dövlət səfərini Azərbaycana etməsi bunun daha bir nümunəsidir. Prezident İlham Əliyev Türkiyə lideri Ərdoğanla birlikdə mətbuata bəyanatında qeyd edib ki, əldə edilmiş bütün uğurların təməlində Türkiyə və Azərbaycan arasında olan qardaşlıq əlaqələri dayanır.

Azərbaycan Prezidenti İlham Əliyev "Şuşa Bəyannaməsi"ni imzalayarkən bildirmişdir ki, bu sənəd tarixi anlaşmadır və bu anlaşma nəticəsində Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldu.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə vurğulayıb ki, "Şuşa Bəyannaməsi"nin müddəalarını bundan sonra da uğurla həyata keçirməkdə qərarlıyıq və bu məsələdə güzəştə getməyəcəyik.

Bəli, "Şuşa Bəyannaməsi" Azərbaycan ilə Türkiyənin qardaşlığını bütün dünyaya nümayiş etdirən bir mesajdır. Və bu gün Şuşada dalğalanan Azərbaycan və Türkiyə bayraqları ölkələrimizin birliyini nümayiş etdirir.

Dövlətimizin başçısı forumda çıxış zamanı onu da bir daha vurğulayıb ki, İkinci Qarabağ müharibəsi başlanan gündən, ilk saatlardan Türkiyə Prezidenti Azərbaycana birmənalı, dəqiq və açıq dəstək ifadə edib. Bəli, müharibənin ilk günlərindən Türkiyə Prezidenti bildirdi ki, Azərbaycan tək deyil. Bu, həm bizi ruhlandırdı, eyni zamanda, müharibəyə müdaxilə etmək fikrində olan bütün qüvvələri, dairələri dayanmağa vadar etdi. Prezident İlham Əliyev»Şuşa Bəyannaməsi»ni izalayarkən çıxışında bildirib ki, Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması ölkələrimiz arasındakı münasibətlərin bütün müstəvilərdə davamlı inkişafını təmin edəcək.

Eyni zamanda, iki dost, qardaş ölkə arasında müttəfiqlik sənədinin 15 İyun - Milli Qurtuluş Günündə Qarabağımızın tacı, musiqi beşiyimiz Şuşada imzalanması dünyaya bu birliyin, həmrəyliyin gələcəyi ilə bağlı bir çox məqamları çatdırdı. Vətən müharibəsində dünyaya "Azərbaycan tək deyil" mesajını ünvanlayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşadan "Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür" bəyan etdi. Və bu 44 günlük İkinci Qarabağ müharibəsinin Qələbə Zəfərində iki qardaş birliyi – İlham Əliyev-Rəcəb Tayyib Ərdoğan - "Bir millət, iki dövlət" birliyini nümayiş etdirdi. Dövlət başçımız bu birlikdən qürur duyduğunu söylədi: "Biz də bu qədər möhtəşəm dostumuz olduğu üçün qürurlu və şadıq".

Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında onu da bildirib ki, "biz Cənubi Qafqazda vəziyyəti sabitləşdirməliyik, dayanıqlı sülhə nail olmalıyıq, təhlükəsizlik təmin edilməlidir. Gələcəkdə burada həm qlobal məsələlərdə, xüsusilə bizim regionda Türkiyənin rolu çox önəmlidir və vacibdir".

Ankaranın sabitləşdirici rol oynadığını vurğulayan dövlətimizin başçısı deyib: "Türkiyənin siyasəti regional təhlükəsizliyi və regional inkişafı təmin etməkdir. Bu rol həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda çox yüksək qiymətləndirilir".

Bir sözlə, bu gün Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı sadəcə olaraq, kəlam deyil, bu, gerçəkdir. Artıq bu reallıq bütün sahələrdə sübuta yetirilməkdədir. Bu günə qədər bu iki dövlət qoşa qanad kimi, birlikdə addımlayıb, birlikdə bir çox möhtəşəm qələbələrə, nailiyyətlərə, uğurlara imza atıb, bundan sonra da birlikdə addımlayaraq, növbəti parlaq qələbələrə, zəfərlərə imza atacaqlar və dövlət başçımızın dediyi kimi: "Prezident Ərdoğan ilə şəxsi dostluğumuz regional inkişaf və sabitlik baxımından çox mühüm faktordur".

***RƏFİQƏ KAMALQIZI***



# Paşinyanın “sülhü” və “məramı”

***Rusiyanın xarici işlər naziri Sergey Lavrov Ermənistan və Azərbaycandan olan həmkarları Ararat Mirzoyan və Ceyhun Bayramovla görüş keçirib. Nazirlər Qarabağ ətrafındakı vəziyyəti və Bakı ilə İrəvan arasında sülh müqaviləsinin hazırlanmasını müzakirə ediblər. Lavrov açıqlamasında ərz edib ki, “Rusiya bu məsələlərdə maksimum yardım göstərməyə hazırdır”. Amma necə? 30 il münaqişənin hərtərəfli inkişafında bilavasitə iştirak etmiş ölkənin baş diplomatı bunu necə edəcəyini də açıqlasa yaxşı olar. Açıqlaya bilmir, yaxud bilməz. Çünki ifşa olunmaq təhlükəsi çoxdur. Lavrov hər şeyi üstüörtülü edir.***

Ermənistanın baş naziri Nikol Paşinyan isə İrəvanda keçirdiyi mətbuat konfransında XİN başçılarının Moskva görüşündən danışıb. Onun sözlərinə görə, görüşün harada keçirilməsindən asılı olmayaraq - Moskvada, Vaşinqtonda, Brüsseldə - danışıqlar aparan tərəflər, gündəm, fundamental məsələlər və müzakirənin məntiqi dəyişmir. Simptomatikdir ki, Ararat Mirzoyan bir gün əvvəl İranda olub və orada o, həmçinin İran rəhbərliyi, xüsusən də prezident İbrahim Rəisi ilə Cənubi Qafqazdakı vəziyyəti müzakirə edib. İran tərəfi öz yanaşmasını bir daha təsdiqləyib. Onun mahiyyəti ondan ibarətdir ki, o, Cənubi Qafqaz dövlətlərinin beynəlxalq səviyyədə tanınmış sərhədlərində istənilən dəyişikliyə qəti şəkildə qarşıdır. Bu o deməkdir ki, Ermənistan-İran sərhədinin 40 km-lik hissəsinin qorunub saxlanması Tehran üçün çox qırmızı xəttdir və heç bir halda onu dəyişməyə imkan verməyəcək. Bununla belə, vəziyyət çox qeyri-müəyyən olmaqda davam edir. Nikol Paşinyanın sözlərinə görə, həm dünyada, həm də Cənubi Qafqaz regionunda sabitliyin əsas amillərindən biri hesab edilən keçmiş dünya nizamı artıq yoxdur. Və yeni dünya nizamı nə olacaq, onun sözlərinə görə, heç kim bilmir. Ona görə də Ermənistanın baş naziri hesab edir ki, Cənubi Qafqazda sülh ancaq bütün sivil cəmiyyətin fəal dəstəyi ilə mümkündür. Baş nazir deyir ki, o, Ermənistanla Azərbaycan arasında gələcək sülh müqaviləsinin daha bir neçə maddəsi üzrə razılığa gəlməyi, ən əsası isə Laçın yolunun açılması məsələsində müəyyən həll yolunun tapılacağını gözləyir.

Burada onu demək lazımdır ki, Ermənistanda son vaxtlar Rusiya sülhməramlı kontingentinin Qarabağın “blokadasında” rolunun effektivliyinin aşağı olması səbəbindən onun beynəlxalq qüvvələrlə əvəzlənməsi barədə fikirlər artır. Qarabağdakı separatçılar da bu haqda danışırlar - ya Rusiya sülkməramlıları beynəlxalq qurumla əvəz olunmalı, ya da ona BMT və ya ATƏT mandatı verilməlidir. Lakin mandat yalnız bütün tərəflərin razılığı ilə verildiyi üçün bu mümkün deyil. Qarabağ problemini daxili məsələ hesab edən Azərbaycan heç vaxt buna razı olmayacaq. Xankəndidəki separatçılar bunu bilməmiş deyillər. Ona görə də onların açıqlamaları ən azı çaşqınlıq yaradır. Bununla bağlı Paşinyan separatçı, həm də təəccübləndirici fikir səsləndirib. Bildirib ki, bu fikir hələ heç yerdə səslənməyib. Onun sözlərinə görə, Rusiya sülhməramlıları Qarabağda yerləşdirilməsində məqsəd əhalinin kütləvi şəkildə məhv edilməsinin qarşısını almaqdır. “Rusiya geri çəkilmək qərarına gəlsə, bu, ən azı Qarabağda əhalinin qırğını təhlükəsinin olması deməkdir, lakin belə bir təhlükə varsa, belə bir qərarın necə qəbul oluna biləcəyini təsəvvür etmək çətindir. Əgər belə bir təhlükə yoxdursa, o zaman beynəlxalq mexanizm çərçivəsində “Bakı-Xankəndi dialoqu” effektiv hesab edilir və tərəflər sülhməramlı qüvvələrin mövcudluğuna ehtiyacın olmadığını müəyyən edirlər”, - Nikol Paşinyan bildirib.

Beləliklə, Nikol Paşinyan faktiki olaraq Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, eyni zamanda Azərbaycan Prezidenti İlham Əliyevin fikirləri ilə ziddiyyət təşkil edən mövqe nümayiş etdirib. Hər kəsə məlumdur ki, sülhməramlıların Qarabağda qalma müddəti 2025-ci ilə qədərdir. Amma Paşinyanın yeni qənaətinə görə, sülhməramlılar yalnız Qarabağ ermənilərinin mövcudluğuna heç bir təhlükə olmadığı zaman gedə bilərlər.

Eyni zamanda, baş nazir vurğulayıb ki, Ermənistan Qarabağda yaşayan ermənilərin taleyini həll edə bilməz: “Onlar özləri danışıqların, dialoqun tərəfi olmalıdırlar”. Ermənistan hökumətinin başçısının fikrincə, Qarabağdakı ermənilərin hüquqları və təhlükəsizliyi ilə bağlı məsələlər beynəlxalq mexanizm çərçivəsində Bakı ilə Xankəndi arasında dialoq vasitəsilə müzakirə edilməlidir. Paşinyanın fərziyyəsinə görə, Qarabağ erməniləri yalnız bu format çərçivəsində onları maraqlandıran bütün məsələləri qaldırmaq, eləcə də onların məzmununa görə siyasi məsuliyyət daşımaq imkanı əldə edəcək. “Azərbaycan danışıqlar masası arxasında Qarabağ ermənilərinin hüquqlarını və təhlükəsizliyini müzakirə etməkdən imtina etməyib”, - deyə Paşinyan bildirib.

Separatçıların başçısı Arayik Arutyunyan Qarabağın “öz müqəddəratını təyin etmək uğrunda” mübarizəni davam etdirəcəyini bildirib və Ermənistan hakimiyyətini Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə bağlı bəyanatlarında diqqətli olmağa çağırıb. Erməni politoloq Armen Xanbabyanın verdiyi məlumata görə, Moskva təbii ki, Ermənistan-Azərbaycan sülh müqaviləsinin bağlanması prosesini Qərbə verməmək üçün hər şeyi edəcək. Çünki bu, Rusiyanın Cənubi Qafqazda təkcə təsirinin yox, faktiki mövcudluğunun sonu demək olardı. Bəlkə də, hətta çox güman ki, sülh müqaviləsinin bağlanması xeyli vaxt tələb edəcək. Əslində, Paşinyanın Rusiya sülhməramlılarının Qarabağda olması ilə bağlı bəyanatlarından çıxış etsək, belə nəticəyə gəlmək olar ki, həm Rusiya sülhməramlı qüvvələri, həm də İran və Türkiyə sərhədlərindəki Rusiya sərhədçiləri çox uzun müddət Ermənistanda qalacaqlar. Hələlik bu dəyişmədən, gedişdən söhbət gedə bilməz.

### Ermənistan Rusiyaya sanksiyalardan yan keçməyə kömək etməyəcək?

Ermənistanın baş naziri Nikol Paşinyan “Frans Press”ə (AFP) müsahibəsində bildirib ki, Ermənistan Rusiya Federasiyasına qarşı sanksiyalar məsələsində Aİ və ABŞ ilə əməkdaşlıq edir və beynəlxalq birliyin məsul nümayəndəsi kimi özünü sübut etmək üçün hər şeyi edir. Paşinyan xatırladıb ki, Ermənistan Avrasiya İqtisadi İttifaqının üzvüdür, Rusiya bizim əsas ticarət tərəfdaşımızdır və təbii ki, biz ilk günlərdən Qərb dövlətlərinin Rusiya Federasiyasına qarşı tətbiq etdiyi sanksiyaların müəyyən problemlər yaradacağını anladıq. İrəvan başa düşürdü ki, Moskva bu ağır iqtisadi vəziyyətdə erməni həmkarlarından onlara kömək etməkdə müəyyən gözləntilər gözləyəcək. Onlar həm də anladılar ki, Qərb sanksiyalar rejiminə əməl etmək baxımından İrəvandan dəstək gözləyəcək. “Rusiyalı tərəfdaşlarımızla söhbətimizdə biz bunları dedik: biz sizin gözləntilərinizi başa düşürük və onları doğrultmağa hazırıq, lakin Ermənistanın sanksiyalara məruz qalması təhlükəsi yaranana qədər, çünki Rusiya kimi nəhəng dövlət bu addımın, sanksiyaların altına düşə bilər. O zaman Ermənistan indiki hərbi-siyasi vəziyyətdə belə dəbdəbəyə dözə bilməz. Biz də bunu Qərbə demişik”, - Paşinyan bildirib.

### Azərbaycan-Ermənistan danışıqları

Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında bu dəfə Moskvada aparılan yeni danışıqlar Bakı və İrəvanın sülh müqaviləsini yaxınlaşdırmaq, Rusiya üçün isə özünü nüfuzlu vasitəçi statusunda saxlamaq üçün növbəti cəhd oldu. Bununla belə, tərəflər kompromisdən uzaqdırlar və etiraf edirlər ki, görüşlərin tezliyi onların effektivliyinə xüsusilə təsir etmir. Bakı bundan xüsusilə qıcıqlanır və Azərbaycan tərəfi səbrinin hüdudsuz olmadığını hər vasitə ilə açıqlayır. Azərbaycan və Ermənistan Rusiyada ilk dəfə keçirilməyən danışıqlar prosesi ətrafında sonradan yenidən başlamaq üçün manevr etməyə davam edirlər. May ayında müharibə edən, lakin sülh sazişi bağlamağa çalışan iki ölkənin xarici işlər nazirləri Vaşinqton, Brüssel və Moskvada görüşüblər. İyun-iyul aylarında Azərbaycan və Ermənistan xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyan eyni marşrutla gediblər. İyunun sonunda iki ölkənin diplomatlarının başçıları ABŞ-a səfər edib, iyulun ortalarında Brüsseldə görüşüblər və həmin ayın sonunda danışıqlar üçün Moskvaya uçublar.

Azərbaycan və Ermənistanın dəfələrlə bu il başa çatdırıla biləcəyini qeyd etdiyi sülh müqaviləsi üzərində işləyirlər. Danışıqların coğrafiyası Cənubi Qafqazda baş sülhməramlı titulu uğrunda Qərb və Rusiya arasında rəqabətə işarə edir. Çərşənbə axşamı Qafqazdan gələn qonaqları qəbul edən Rusiyanın xarici işlər naziri Sergey Lavrov görüşün məqsədini ”Cənubi Qafqazda uzunmüddətli sabitləşmə” adlandırıb. O, Moskvanın hansı rola arxalandığını qeyd edib - Azərbaycan-Ermənistan dünyasına xeyir-dua verməkdən başqa bir şey yoxdur. “Biz Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanmasına dair ən yüksək səviyyədə razılaşmaların həyata keçirilməsinə xüsusi diqqət yetirmək istərdik. Biz buna hər cür kömək etməyə hazırıq, o cümlədən bu imzalanma üçün platforma təqdim edirik”, - deyə Lavrov qeyd edib. Ümumiyyətlə, tərəflər bütün məsələlərin siyahısını müzakirə etmək üçün toplaşıblar. Sülh müqaviləsindən əlavə, o, Azərbaycan-Ermənistan sərhədinin demarkasiyası və delimitasiyası, eləcə də regionda nəqliyyat kommunikasiyalarının açılmasını ehtiva edir ki, bunlardan da Bakı üçün ən mühümü Naxçıvana gedən yoldur. Bundan başqa, Qarabağ ətrafında baş verənlər proseslərin həlli də diqqət mərkəzindədir. Daha doğrusu, 2020-ci ildə baş verən müharibədən sonra Azərbaycan tərəfindən nəzarətsiz qalan və hələ də erməni əhalisinin yaşadığı Qarabağda baş verən separatçı əməllərə son qoyulmasıdır.

İndiyə qədər hər bir görüş, harada baş verməsindən asılı olmayaraq - Vaşinqtonda, Brüsseldə və ya Moskvada ümumi sözlərlə başa çatıb ki, onun da faydası olmayıb və sülh müqaviləsinə gedən yolu müəyyən addımlarla qısaldıb. Ancaq son nöqtəyə qədər qalan məsafə hələ də naməlum olaraq qalır. Açığını deməliyik ki, nəticələr danışıqlar prosesinin özünün dinamikasından bir qədər aşağıdır, lakin heç bir müsbət nəticənin olmadığını desək, yəqin ki, düzgün olmaz. Görüşlər, danışıqlar kifayət qədər intensiv xarakter daşıyır, bəzi məsələlərdə konkret nəticələr var, bəzi məsələlərdə bəzi perspektivlər var ki, orada tərəflər qarşılıqlı razılığa gələ bilərlər. Amma təbii ki, tərəflərin mövqelərinin hələ də bir-birindən uzaq olduğu problemli məsələlər qalır.

Ermənistanın XİN başçısının sözlərinə görə, vəziyyəti Azərbaycanın “Qarabağı blokadaya alması” mürəkkəbləşdirir. Söhbət Azərbaycan tərəfinin Laçın yolunda sərhəd-keçid məntəqəsinin yaradılmasından gedir. Bakıda keçid məntəqəsinin yaradılması tamamilə qanuni sayılır, çünki Azərbaycan ərazisinə, yəni Qarabağa gətirilən hər şeyə nəzarət etmək üçün Azərbaycan ərazisində yaradılıb. Ermənistan tərəfi şifahi olaraq bütün Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyıb. Ermənistanın baş naziri Nikol Paşinyan iyulun 25-də keçirdiyi mətbuat konfransında bildirib ki, Qarabağ məsələsi Ermənistan üçün məsələ deyil. Bakı isə israr edir ki, Ermənistan son addımı atmalıdır. Onlar artıq Qarabağın Azərbaycan olduğunu tanıyıblar, bunu açıq bəyan ediblər və indi artıq sənədin imzalanması mərhələsi başlayıb. Bu, müstəsna əhəmiyyət kəsb edən son məqamdır. Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Şuşada keçirilən Media Forumda jurnalistlərin suallarına cavab verərkən deyib.

Qarabağdakı erməni əhalisinin hüquqları, cənab Əliyevin fikrincə, Azərbaycan Konstitusiyası ilə təmin olunacaq və ölkədə yaşayan digər etnik qrupların hüquqları ilə eyni olacaq. Həmin forumda Azərbaycan lideri qeyd edib ki, Ermənistan Azərbaycana qarşı ərazi iddialarından əl çəksə, ilin sonuna qədər sülh müqaviləsinin imzalanacağını gözləmək mümkün olacaq. Amma belə olmasa, o zaman Bakının Ermənistanı “bir yumruqla” buna məcbur etməkdən başqa yolu qalmayacaq. Cənab Əliyev isə bu ssenarini ən yaxşıdan uzaq adlandırıb.

Sergey Lavrov Moskva danışıqlarının nəticələrini şərh edərkən bildirib ki, bu il Rusiya, Azərbaycan və Ermənistan liderlərinin daha bir görüşü baş tuta bilər. “Biz gözləyirik ki, böyük danışıqlar prosesinin kulminasiya nöqtəsi ermənilərin və azərbaycanlıların Rusiya prezidenti ilə üçtərəfli görüşləri zamanı başlayan səyləri altından xətt çəkəcək sazişin imzalanması olacaq. Yol asan deyil. Həll edilməli çoxlu mürəkkəb və vacib məsələlər var. Onlardan ən həssası 1991-ci ildə keçmiş sovet respublikalarının rəhbərləri tərəfindən imzalanmış Alma-Ata bəyannaməsinə tam uyğun olaraq Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi kontekstində Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin təmin edilməsi problemi olub və qalır”, - Sergey Lavrov mediaya şərhində bildirib.

**V.VƏLİYEV**

PRİZMA







# Qalib Azərbaycanı qürurla təmsil edən idmançılarımız

## Prezident İlham Əliyev: "Biz göstərdik ki, qalib gələ bilərik və qələbə Azərbaycanda vətənpərvərliyin çox mühüm amilinə çevrildi"

***Ölkəmizin sosial-iqtisadi inkişafı sahəsində müəyyən olunmuş siyasət, respublikamıza uğurlar gətirməklə yanaşı, onun dünya miqyasında imicini də yüksəldib. Ümummilli Lider Heydər Əliyevin siyasi və iqtisadi kursunu uğurla davam etdirən, ideyalarını gerçəkləşdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasətinin məntiqi nəticəsi olaraq, ölkənin davamlı iqtisadi inkişafı təmin edilib ki, bu da, bütün sahələrdə, eləcə də idman sahəsində böyük nailiyyətlərin əldə olunmasına səbəb olub.***

Azərbaycan dünyanın idman arenasında, artıq özünə layiqli yer tutub, istər beynəlxalq yarışlarda iştirakı, istərsə də beynəlxalq yarışlara ev sahibliyi etməsi ilə. Təbii ki, idman və bədən tərbiyəsi hər bir ölkənin beynəlxalq aləmdə tanınması, nəslin sağlam inkişafı üçün önəmli vasitələrdən olduğundan, bu sahəyə dövlət tərəfindən böyük diqqət ayrılır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çinin "China Media Group" media korporasiyasına müsahibə verərkən bildirdiyi kimi, idman ictimai həyatın mühüm amilidir: "İşğal dövründə idman qələbələrimiz insanların şüurunda Birinci Qarabağ müharibəsindəki məğlubiyyətdən sonra bir növ rəmzi kompensasiya oldu. Beləliklə, biz göstərdik ki, qalib gələ bilərik və qələbə Azərbaycanda vətənpərvərliyin çox mühüm amilinə çevrildi. Çünki idmançılarınız qalib gələndə, bayrağımız qalxanda, himnimiz çalınanda adamı böyük qürur hissləri bürüyür. Bu, gənc nəsil üçün vətənpərvər olmaqda mühüm amil idi, çünki mən aydın şəkildə anladım ki, bunsuz biz qələbə qazana bilməyəcəyik. Bəli, biz müdafiə imkanlarımıza, hərbçilərimizin təliminə böyük sərmayələr yatırdıq. Biz İkinci Qarabağ müharibəsinə hazırlaşmaq üçün çox işlər gördük. Lakin sizə deyə bilərəm ki, hazırda, iki il yarımdan sonra, Qələbəmizin əsas meyarı qələbə ruhu idi. Torpaqları azad edənlər həyatlarında heç vaxt Qarabağı görməmişdilər, çünki çox gəncdirlər. Qarabağ işğal ediləndə onlar heç anadan olmamışdılar. Beləliklə, onları bu məqsədə aparan nə idi? Qələbə ruhu, vətənpərvərlik və ləyaqət idi. İdman həm budur, həm fiziki sağlamlıq deməkdir, çünki biz istəyirik ki, cəmiyyətimiz sağlam olsun. "

Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər mühiti formalaşıb. Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına geniş imkanlar açıb. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Xalqımızın qəhrəmanlıq tarixini yazanlar da gənclərdir. Qazanılan uğurlar, bir daha onu sübut edir ki, hər bir gənc ölkə qarşısında qoyulan böyük məqsədi və məsuliyyəti dərk edir. 44 günlük Vətən müharibəsində gənclərimiz vətənpərvərlik nümayiş etdirdilər. Bu gün yüksək milli ruhlu gənclərimiz Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad etdi. 30 illik həsrətə son qoyuldu.

Azərbaycan dövləti idmanın, xüsusilə də, Olimpiya Hərəkatının inkişafına xüsusi diqqət yetirir. Ümummilli Lider Heydər Əliyevin diqqət və qayğısı ilə özündə yeni keyfiyyət dəyişikliklərini əxz edən Azərbaycanın Olimpiya hərəkatı tezliklə sürətli inkişaf mərhələsinə qədəm qoydu. Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə diqqətlə yanaşması, idmançıların qayğı və problemləri ilə yaxından maraqlanması ölkədə idmanın kütləviləşməsinə, gənc nəslin bu sahəyə sürətli axınına şərait yaradıb. Azərbaycanın idman sahəsində qazandığı nailiyyətlər, dünya və Avropa çempionatlarında idmançılarımızın qazandığı medallar və mükafatlar ölkəmizin beynəlxalq idman təşkilatlarında da mövqeyinin xeyli güclənməsinə səbəb olub.

Azərbaycan Prezidenti İlham Əliyevin hələ 1997-ci ildə Milli Olimpiya Komitəsinin rəhbəri seçilməsindən sonra ölkəmizdə idmana və bədən tərbiyəsinə diqqət daha da artdı. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı isə, tezliklə öz müsbət nəticəsini verdi. 2008-ci ilin avqustunda Pekində keçirilən Olimpiya Oyunlarında Azərbaycan idmançılarının qazandıqları qələbələri, xüsusilə, qeyd etmək lazımdır. Pekin Olimpiya Oyunlarında Azərbaycan 7 medal qazandı və dünyanın iki yüzdən çox ölkəsi arasında 38-ci yeri tutdu. Olimpiya Oyunlarında qazanılan bu qələbə də, heç şübhəsiz, dövlətin idmana münasibətinin nəticəsi idi. MDB ölkələri zəhmətkeşlərinin beynəlxalq V İdman Oyunlarında Azərbaycan idmançıları 37 medal - 9 qızıl, 12 gümüş və 16 bürünc medal qazandılar.

### "HAZIRDA BİZ İDMANIN KÜTLƏVİLİYİ ÜZƏRİNDƏ ÇALIŞIRIQ Kİ, HƏR RAYONDA İDMAN İNFRASTRUKTURUMUZ OLSUN"

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın inkişafına yönəlmiş qərarların qəbulu, tədbirlərin reallaşması idman sahəsində ölkəmizin yüksək beynəlxalq nüfuz qazanmasına səbəb olub. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı öz müsbət nəticəsini verib. Müxtəlif idman növləri - güləş, futbol, intellektual oyunlar, şahmat və s. növlərdə Azərbaycan Avropanın və dünyanın diqqətindən kənarda qalmayıb. İdmana ayrılan diqətin nümunəsidir ki, mötəbər idman yarışları, tədbirlər ölkəmizdə davamlı olaraq təşkil olunub. Əlbəttə ki, müasir dövrümüzdə idman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, Olimpiya ideallarının təbliği, müasir Olimpiya kompleksləri və digər tədbirlər nəticəsində, ölkəmiz mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilməklə yanaşı, idmançılarımız mötəbər yarışların qalibi olub. Son illərdə Bakıda və bütövlükdə, Azərbaycanda idman infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülüb. "Hazırda biz idmanın kütləviliyi üzərində çalışırıq ki, hər rayonda idman infrastrukturumuz olsun. Bunu artıq yaratmışıq", - deyə Prezident müsahibəsində diqqətə çatdırıb. Bakı Olimpiya Stadionu, Tofiq Bəhramov adına Respublika Stadionu, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, "Baku Crystall Hall", Bakı Tennis Akademiyası, Heydər Əliyev adına İdman Arenası, "Bakcell Arena", Bakı Atıcılıq Mərkəzi, Bakı Ekspo Mərkəzi və digər idman kompleksləri müxtəlif növ yarışların keçirilməsinə imkan verir. İndi, nəinki paytaxt Bakıda, demək olar ki, ölkəmizin bütün bölgələrində müasir Olimpiya idman kompleksləri fəaliyyət göstərir. Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda - paytaxt Bakıda irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunub. Yeniyetmə cüdoçuların Avropa çempionatı, bədii gimnastika üzrə 27-ci dünya çempionatı, sərbəst güləş və yunan-Roma güləşi üzrə 24-cü dünya çempionatı, görmə qüsurlu paralimpiyaçı cüdoçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə 25-ci Avropa çempionatı, qılıncoynatma üzrə gənclər və kadetlər arasında dünya çempionatı, gənclər arasında boks üzrə dünya çempionatı və s. keçirilib. Bu yarışların Azərbaycanda keçirilməsi, inkişaf etmiş bir dövlət olaraq, hər bir sahədə olduğu kimi, idmanda da ölkəmizə böyük imic qazandırıb. İlk Avropa Oyunlarının da Bakıda keçirilməsi böyük nailiyyət oldu. "Bakı - 2015" Birinci Avropa Oyunlarının yüksək səviyyədə təşkil olunması və tarixi qələbənin qazanılması gələcəkdə ölkəmizdə daha möhtəşəm idman tədbirlərinin keçirilməsi üçün yeni perspektivlər açdı. Dünyanın 17 gün ərizndə izlədiyi bu elit Oyunlarda xalqımızın tolerantlığı, sülhsevərliyi, qonaqpərvərliyi dünyaya nümayiş etdirildi. "Bakı-2015" ilk Avropa Oyunları təkcə qitədə deyil, dünya miqyasında mötəbər idman tədbiri kimi tarixiləşdi. İslam Həmrəyliyi Oyunlarında Azərbaycan idmançılarının qələbələri də yaddaqalan oldu. Bu idman, dostluq və qardaşlıq bayramına çevrilən oyunlar bir daha Azərbaycanın gücünü göstərdi. Azərbaycan 2015-ci ildə Avropa Oyunlarında ikinci, 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarında isə birinci yerə layiq görüldü.

"Avropa Liqasının 2019-cu ildəki final matçı və UEFA 2020-ci ilin matçları 2021-ci ildə Bakıda keçirildi. Bəli, Bakı artıq böyük idman tədbirləri üçün beynəlxalq məkana çevrilib. Ölkəmizdə, həmçinin 2017-ci ildə İslam Həmrəyliyi Oyunları keçirildi. Təsəvvür edin, 2015-ci ildə ilk Avropa Oyunları və 2017-ci ildə İslam Həmrəyliyi Oyunları bir şəhərdə cəmi iki il ərzində keçirilib. Bu, bir daha Azərbaycanı idman ölkəsi kimi nümayiş etdirir. Avropa ilə Asiyanın kəsişməsində yerləşən ölkəmiz müsəlman aləminin, eyni zamanda, Avropanın bir hissəsidir. Ölkəmizin yerləşməsi çox unikaldır. Ölkəmizin siyasəti, cəmiyyətin statusu bütün bunların təzahürüdür" – deyə Cənab İlham Əliyev bildirib.

### "İLK AVROPA OYUNLARI HƏQİQƏTƏN AZƏRBAYCANI AVROPAYA AÇDI"

Paytaxt Bakıda keçirilən yarım əsrdən artıq tarixi olan "Formula 1" idman tarixində yeni maraqlı səhifəyə çevrildi. 1950-ci ildən etibarən hər il keçirilən "Formula-1"-in möhtəşəmliyi üçün paytaxtımızda istənilən şərait yaradıldı. Dünyanın elit yarışmalarından olan "Formula 1" dünyanın 190 ölkəsində 500 milyondan artıq azarkeş tərəfindən izlənildi. Bu da paytaxtımız ətrafında kifayət qədər məlumatı dünya ictimaiyyətinə çatdırmış oldu. "İlk Avropa Oyunları həqiqətən Azərbaycanı Avropaya açdı" – deyən Prezident Formula 1 yarışlarının artıq Azərbaycanda yeddi dəfə keçirildiyini bildirib: "Xüsusən də, nəzərə alsaq ki, o, şəhər küçələrində baş verir. Bu, Bakını heç vaxt görməyən üçün şəhərimizin təqdimatıdır. Formula 1-in auditoriyası 500 milyondur. İlk Formula 1 yarışlarından sonra turizm 20 faiz artdı və COVID-dən əvvəl hər il on – on beş faiz artım var idi. Yarışlar sayəsində çoxlu xarici turist gəldi. Ölkəyə çox xarici valyuta daxil oldu. Bir çox amillər hər bir hökumətin idmanın inkişafına böyük diqqət yetirməli olduğunu göstərir."

Bütün bu uğurlar onu göstərir ki, gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam yetişməsini dövlətimiz daim diqqət mərkəzində saxlayır. Məhz bu diqqət və qayğı Azərbaycanın qarşıdakı illərdə idmanda daha böyük uğurlara imza atacağını deməyə əsas verir.

Bu gün ölkəmizdə cəmiyyətin inkişaf edən bütün sahələri kimi idman da öz çiçəklənmə dövrünü yaşayır. Yüksək səviyyəli idman infrastrukturunun yaradılması və olimpiya idman komplekslərinin inşa edilərək xalqımızın ixtiyarına verilməsi bunun təzahürüdür.

***Zümrüd BAYRAMOVA***

# Arxivə göndərdiyimiz qəzet janrları

***Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin müəllimi, hamımızın sevimlisi olmuş mərhum professor Famil Mehdi mətbuat janrlarının ümumi mənzərəsini bu cür xarakterizə edirdi: xəbər, hesabat, müsahibə, reportaj, korrespondensiya, məqalə, icmal, resenziya, məktub, mətbuat xülasəsi, zarisovka, oçerk, felyeton, pamflet və təmsil, şarj, parodiya. Ancaq bu siyahıya esse, söz, gündəlik, səfərnamə, bədii-publisist, tərcümeyi-hal, xatirə, bədii nitq, nekroloq və başqalarını da əlavə etmək lazımdır.***



Dəyərli müəllimimiz Cahangir Məmmədli isə bu janrların hər birinin yaradıcılıq məqamında jurnalistin özünümüdafiə aktına çevrildiyini qeyd edir, vurğulayır ki, janr müəllifə özünüifadə üçün xüsusi imkan yaradır.

Təbii ki, jurnalistin peşəkarlıq səviyyəsinə yüksəlməsində janr məqamının böyük rolu var. Jurnalistlər zaman-zaman daimi yazdıqları janrların sayəsində püxtələşir, yaxşı xəbərçiyə, icmalçıya, oçerkistə, felyetonçuya, publisistə, ən başlıcası isə peşəkar jurnalistə çevrilirlər.

Bu qədər zəngin janrlara məxsus olduğumuz halda, gəlin görək, bugünkü müasir mətbuatımız onların hər birindən yararlana bilirmi? Bu janrları yaşada bilirikmi? Yoxsa onları çoxdan arxivdə saralmış vərəqlərin arasına göndərmişik...

### Yoxa çıxan janrlar

Artıq məlum məsələdir ki, müasir mətbuatımızda janr bolluğundan, əslində varlığından danışmaq əbəs məsələdir. Çünki artıq bir-birindən maraqlı olan janrları illərdir ki, arxivə yola salıb bir neçə janrla qəzet çıxarır, agentliklər idarə edirik. Hansı ki, dövrün, zamanın dəyişməsindən asılı olmayaraq bu janrların yaşadılması istehsal etdiyimiz məhsulun daha da keyfiyyətli olmasına dələlət edərdi.

Hazırda mətbuatımız xəbərçiliyə xidmət edir. Mətbuat, qəzet, agentlik deyiləndə düşünülən yalnız onlardan informasiya qəbul etməkdir. Çünki onlar əsasən xəbərə üstünlük verirlər. İndi artıq ölkəmizdə elə qəzetlər dərc olunmur ki, bir sayında mətbuat janrlarının bir neçəsini əhatə edən yazılarla rastlaşa, rəngarənglik görə, müxtəlif janrlarda yazılan yazıları oxuya biləsən və əlində həqiqətən də qəzet olduğunu hiss edəsən. Və yaxud sonuncu səhifədə fotojurnalistika janrına məxsus bir foto görüb fotonun dili ilə bir ictimai qınağın, təbiət mənzərəsinin, qeyri-adi nəyinsə şahisi olasan. Ya bircə dəfə bir karikaturaya rast gəlib keçmişi yada salasan. Yoxsa cəmiyyətimizdə karikaturalıq hadisə yoxdur?

İllərdir ki, janrları torpağa gömmüşük, havaya uçurmuşuq. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsi hər il onlarla jurnalist verir mətbuatımıza. Onlar təhsil illərində janrlar haqqında bilik əldə etsələr də, elə ki iş yeri üçün mətbuata yerləşirlər, olurlar burada janrları unudanlardan biri və başlayırlar köhnə kəndə yenilik gətirmədən fəaliyyətə. Xəbər, xəbər, xəbər... Nə qədər xəbər?.. Hamı xəbər yazır. Bütün bunların günahkarı isə gənc jurnalistlər deyil, bizlərik. Biz onlara yol göstərməli, biz qəzetçilik ənənələrini yaşatmalıyıq ki, gənc jurnalistlər də bizdən nümunə götürsünlər.

### Janr mətbuatın geyimidir

Bəli, necə ki, "geyim insanın yaraşığıdır",- deyirik, janr da qəzetin geyimi və yaraşığıdır. Elə ki, həyatımızı "müasirləşdirdik", biz yaman dəyişdik. Nə kitab oxuduq, nə köhnə filmləri izlədik, mahnıları dinlədik. Eləcə də geyimlərimiz dəyişdi. Ətəklərimiz dizdən iki qarış yuxarı, köynəklərimiz beldən bir qarış yuxarı qalxdı. Qadınlar ətəkdən



çox şalvara üstünlük verdilər. Kişili-qadınlı saçlarımızı təbiətə naməlum rənglərə boyadıq. Qəzetlərimizi də eynilə özümüzə oxşatdıq. Əynindən paltarını(janrları) soyundurduq. Onları müasirləşdimək istərkən elə bir vəziyyətə gətirib çıxardıq ki, özü özündən utanmağa başladı. Baxdı ki, quruca canı qalıb ortalıqda. Nə janrı var, nə fotosu, nə dadı, nə də ki duzu...

Gəlin bu gün ölkəmizdə dərc olunan onlarla qəzetlərin bir günlük nömrəsini əlimizə alaq. Onların heç birində ən azından 3-4 janrı elə sayda görmək mümkün deyil. Nə felyeton, nə zarisovka, nə pamflet, parodiya, təmsil, nə icmal, oçerk, mətbuat xülasəsi və sair... Yoxdur. Artıq bu janrlardan tək bircəsini qəzet səhifələrində, agentliklərin xəbər lentində şam işığında iynə axtaranlar kimi axtarmağa başlamışıq. Lakin bəri başdan deyim ki, axtarmağa dəyməz. Çünki tapmaq mümkün olmayacaq, axtaranın da əziyyəti özünə qalacaq.

### Xəbər, müsahibə, reportaj, təhlil... Vəssalam

Müasir mətbuatımız hazırda bu dörd janrla gündəlik işini qurur. Xəbər başda dayanır, söz yox ki. Həm də necə dayanır, eyni xəbəri bütün agentliklərin təqdimatı ilə. Agentliklərin özünün xəbər istehsalı bu gün elə bir vəziyyətdədir ki, adamın dəsmal götürüb hönkürtü ilə ağlamağı gəlir.

Müsahibə, reportaj isə müasir dövrün ən işlək janrlarıdır. Çünki bu janrlar etiraf edək ki, digər janrlardan daha asan başa gəlir. Suallar verilir, səslər yazılır, həmin cavablar və səslər əsasında da yazı hazırlanır. Bu yazıların redaktəsindən söhbət açmaq başqa bir mövzu olduğu üçün bu barədə danışmaq yerinə düşməz.

Qaldı ki, təhlilə. Bu adda janr əslində yoxdur. Biz analitik janrları müasirləşdirib təhlil etmişik. Belə ki, əgər xəbərdə konkretlik, dəqiqlik, fakt əsas götürülürsə, analitik informasiyalarda həmin fakt təhlil olunur. Analitik hesabat, analitik korrespondensiya, analitik müsahibə, söhbət, analitik şərh bu janrların özünəməxsus xüsusiyyətlərindən əlavə, həm də onun təhlili ilə seçilir, hadisələrin açılması, nəticə verməsi ilə müəyyənləşir.

Redaksiyalarımıza yeni işə qəbul edilən jurnalistlər də, necə deyərlər, gözlərini mətbuata açandan bunlardan başqa janr görmədikləri üçün yaşları 30-35-ə çatır, baxırsan ki, onlardan əvvəlki jurnalistlər nə idilərsə, bunlar da onların davamçılarıdır. Beləliklə də icmal, oçerk, mətbuat xülasəsi felyeton, zarisovka, pamflet, parodiya, təmsil mətbuat orqanlarından uzaq düşüb. Unudulub, yaddan çıxarılıb, göz görə-görə arxivə yola salınıb.

Hazırda mətbu orqanlarda və yaxud agentlik, saytlarda təsadüf nəticəsində bu janrlara rast gəlmək olur. Belə olanda isə ac adam yeməyə necə "hücum" çəkirsə, yazını oxumağa elə girişirik. Söz yox ki, bu barədə mənimlə eyni fikirdə olan onlarla jurnalist və ya oxucu var.

### Maksim Qorki deyirdi ki...

...Söz sənəti heç bir zaman həyatı dərk etmək işinə bu qədər cəhdlə, bu qədər müvəffəqiyyətlə xidmət etməmişdir. Bunu xüsusilə oçerklərdə yaxşı görmək olar. Bu gözəl ifadələri Maksim Qorki söyləyirdi. Bir zamanlar mətbu orqanlarımızın bəzəyi olan oçerklər haqqında söyləyirdi. Yəqin xatırlayanlar olar ki, illər öncə nə qədər oçerklər yazılırdı. Həm də ovaxtkı mətbu orqanlarımız ona görə həm cazibədar, həm də maraqlı idi ki, bütün janrlarda yazılan yazıların sərlövhələrinin altında, ya da rubrikası olaraq janrların adı da verilirdi. Müasir mətbuatımızda isə təsadüf olaraq yaxşı bir oçerk oxuya bilsən də, nədənsə janr göstərilmir. Bəlkə də iddia edənlər olar ki, buna ehtiyac yoxdur. Çünki indi xeyli mətbuat başbilənləri yaranıb. Lakin nə üçün ehtiyac yoxdur ki? Bunun özü bir xatırlatma deyilmi? Gənc jurnalistə göstərilən yol deyilmi? Nəticədə isə janrın yaşadılması deyilmi?

2020-ci ildə-ölkəmizdə İkinci Vətən müharibəsi zamanı düşünürdüm ki, oçerk janrı yenidən doğulacaq. Çünki müharibə bu janrın doğulması, həyata yenidən vəsiqə alması üçün gözəl imkanlar vermişdi. Oçerklər oxuduq da müharibə, şəhidlərimiz, Zəfərlə bağlı, lakin təqdimatda bunu görə bilmədik, gənclərimizə də bu səbəbdən təlqin edə bilmədik.

Oçerk həyatı obrazlı dərk etməyin və ona təsir göstərməyin vasitələrindən biridir. Başqa ədəbi janrlardan fərqli olaraq oçerk həyat hadisələrini konkret faktlar əsasında təsvir edir. Oçerk həyatda baş verən hadisədən, bir qəhrəmanın və ya kollektivin fəaliyyətindən bəhs edir. Bu janrda elə hadisələr və ya adamın işi təsvir edilir ki, həmin hadisə cəmiyyətin inkişafındakı amilləri əks etdirir, o adam hər kəsə nümunədir, ondan öyrənməli çox şeylər var. Oçerkdə bəhs etdiyimiz hadisəni xəbərdə də verə bilirik, lakin qısa və məlumat xarakterli. Lakin oxucuya oçerk vasitəsilə göstərdiyimiz təsiri, onda yaranan hissləri xəbərlə verə bilmirik axı. İnsanlar bədii üslubda yazılan yazıları daha çox oxumağı sevirlər, nəinki rəsmi. Bu səbəbdən də "hanı oçerklər?",- deyib həyəcan təbilini dayanmadan-durmadan çalmağın vaxtıdır.

### Resenziya deyiləndə...

Müasir mətbuatımızda yalnız yeni dərc olunan kitabları tərifləməklə resenziya janrının haqqının verildiyini zənn edənlər var. Lakin V. Belinski deyirdi ki, resenziya oxucunu istiqamətləndirməyə kömək edir, ən azı pis kitablara pul verməkdən çəkindirir.

Professor Cahangir Məmmədli isə yazır ki, resenziya latın dilindən olan resenziya (resensio) "baxış, məlumat, qiymət vermək, rəy" deməkdir. Azərbaycan dilində əslində, bu sözü rəy kimi istifadə etmək olar. Rəy-resenziya ədəbi əsərlər haqqında tənqidi fikirdir. Resenziya hər hansı çap məhsulu, kinofilm, incəsənət əsəri, teatr, televiziya, radio proqramları, qəzet, məqalə haqqında tənqidi baxışları əks etdirir.

2008-ci ildə "Azərbaycan" qəzeti resenziya mövzusunda ən yaxşı yazılarla çıxış edən qəzetlərdən olmuşdur. "Azərbaycanın efir məkanı: problemlər və vəzifələr" rubrikası ilə verilən onlarla resenziya müxtəlif telekanallarda yayımlanan proqramların aşağı səviyyədə, milli mentalitetimizə uyğun olmayan şəkildə olmasından bəhs edirdi.

Müasir mətbuatda isə bu janrın mahiyyətini ortaya qoyan yazılarla təsadüf nəticəsində rastlaşmaq olur. Hansı ki, ölkəmizdə hər gün yüzlərlə kitab dərc olunur, film, tamaşalar nümayiş etdirilir, verilişlər işıq üzü görür onların əksəriyyəti yaxşı bir resenziyanın mövzusudur. Bu arada, mən özüm də çoxdan bəri əsl resenziya yazmamışam, palaza bürünüb el ilə sürünmək prinsipinə əsasən mətbuatda dəbdə olan resenziyalardan yazmışam. Lakin 2009-cu ildə yazdığım "Müəlliflərindən əvvəl ölən kitablar" adlı resenziyanı da xatırladım. Hansı ki, çox səs-küyə səbəb olmuşdu.

### Torpağa gömülən zarisovka, felyeton, pamflet, təmsil, şarj, parodiya

Digər mətbuat janrlarına bəlkə də 2-3 aydan bir rast gəlmək mümkün olar ki, zarisovka, felyeton, pamflet, təmsil, şarj və parodiyaya son illərdə əksər mətbuat orqanlarında rast gələn olubmu? Bu gün onlarla jurnalistə bu janrların mahiyyəti ilə bağlı sual verilərsə, inanıram ki, çoxları bilməyəcək. Çünki bu janrları əllərimizlə mətbuatımızdan yox etmişik. Kimsə bunlardan istifadə etməyin deməyib bizə. Bu janrları məhv edənlər jurnalistlərin özləridir. Hansı ki, janr xüsusiyyətinə görə kiçik ölçüdə olan bu yazılar mətbuat, cəmiyyət üçün olduqca əlverişli ola bilərdi.

Bu janrlarla pis məqsədlər, mövqelər açıqlanır. Mətbuatımızın Mirzə Cəlilləri, Sabirləri, Üzeyirləri, Sidqiləri yaşadılmaqla yanaşı, həm də cəmiyyətin eybəcərlikləri, görülən işlərə qara yaxanlar, haramzadə, rüşvətxorlar, savadsız, kütbeyinlər, cəmiyyətə yamaq olanlar tənqid odunda yandırılır, alovlanır.

Qısa, lakonik ifadə tərzi ilə başa gələn yazılar bütün dövrlərdə oxucunun gözlədiyi janrlar olub. Bəs indi necə, oxucu bu janrlarda yazı oxumaq istəmir? Əlbəttə, istəyir. Lakin biz mətbuat adamları özümüz öz oxucumuzun zövqünü dəyişməyə qalxmışıq. Yazırıq ki, oxucu da oxusun?

Oxucularla əlaqəsi olanların hər biri etiraf edər ki, onlar bu janrlarda yazıların dərc olunmaması üçün biz jurnalistləri qınayırlar. Deyirlər ki, jurnalistlər, yazarlar vardı o zamanlar, nələr yazırdılar, siz nə yazırsınız ki? Hanı o felyetonlar?..

Gəlin, oxucuların cavabını verək. Onlar bizdən tələb edirlər, biz isə müasir dövrün küləyinə tuş gəlib hara getdiyimizi bilmirik. Çox təəssüflər olsun.

### Fotojurnalistika, haradasan?

Fotojurnalistika mətbuat janrları içərisində ən çətin, böyük məsuliyyət, peşəkarlıq tələb edən janrdır. Çünki burada söz yoxdur, təxəyyül, düşüncə, intuisiya, zövq vardır. Hər hansı qəzet janrında sözlər yazının başlanması və tamamlanmasını mümkün edirsə, müəllifin fikirləri ilə oxucu arasında əlaqə yaradırsa, fotojurnalistikada sözü düşüncə, zövq deyir.

Bəs nə üçün yoxa çıxarılıb bu janr? Axı vaxtilə qəzetlərin son səhifələrinin bəzəyi olurdu. İndi isə yoxluğa qovuşub. Bir foto ilə böyük bir mətləb ortaya qoyulurdu. Şəhərin, kəndin çirkli saxlanılan bir guşəsi sözlər olmadan ifadə edilirdi. Təbiətin bir gözəlliyi, möcüzəsi, turizm bölgələrinin bir əsrarəngizliyi fotolar vasitəsilə oxucu zövqünü oxşayır, onu məlumatlandırırdı. Müasir dövr qəzetlərinin səhifələrini isə bu gün şou xəbərləri, zorla qəzeti doldurmaq xarakteri daşıyan yemək reseptləri, diyet yeməkləri, dəb xəbərləri və əttökən digər yersiz materiallar tutur.

### Beləliklə, çox təəssüf...

Uzun sözün qısası, fatihəsini verdiyimiz janrlar üçün çox təəssüf olsun. Onlar bu gün hər bir qəzetin də, saytın, agentliyin də yaraşığı, oxucu sayı ola bilərdilər. Lakin üzərindən xətt çəkdik onların. Sanki həkim bir xəstəliyin üzərindən xətt çəkir ki, mən bu xəstəliyi olan insana baxmayacağam. Müəllim dərs proqramından bir mövzunu çıxarır ki, bu dərsi şagirdlərə öyrətməyəcəyəm. Mühəndis binanın layihəsində nəyi isə ixtisara salır. Bunlar mümkün ola bilərmi? Əlbəttə ki, xeyr. Bunları etməyə heç kimin haqqı yoxdur. Bəs belə isə mətbuat janrlarını ixtisar etməyə, arxivə göndərməyə, əslində isə torpağa gömməyə kimin haqqı çatır? Bu sual barədə bütün mətbuat işçiləri düşünsə, məncə itirdiyimiz janrların xeyrinə olar. Bu səbəbdən də gələcəkdə davamçılarımızın bizə gülməməsi üçün qayıdış etməliyik. Əsl mətbuatımıza qayıtmalıyıq. Bizə nəyi necə öyrədiblərsə, onları davam etdirməyə qayıtmalıyıq. İtirə-itirə gedəriksə, illər sonra özümüz peşman olarıq, əziz mətbuat adamları. Gəlin, qələmi əlimizə onun haqqını verərək alaq!

***Mətanət Məmmədova***

# "Azərbaycan sülh, Ermənistan isə silah axtarışındadır"



***"Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada aparılan danışıqları Bakı və İrəvanın sülh müqaviləsini yaxınlaşdırmaq məqsədi daşıyır. Rusiya üçün isə bu, özünü nüfuzlu vasitəçi statusunda saxlamaq üçün növbəti cəhd oldu. Bununla belə, tərəflər hələlik kompromisdən uzaqdırlar və etiraf edirlər ki, görüşlərin tezliyi onların effektivliyinə təsir etmir.***

Bakı sülhə can atsa da İrəvan gözləmə mövqeyindədir. Azərbaycan tərəfi səbrinin hüdudsuz olmadığını da hər vasitə ilə açıqlayır. Ölkə rəhbəri kənar qüvvələrin bu münaqişənin həllində maraqlı olmadığını da hər görüşündə bəyan edir. Ermənistanla Azərbaycan sülh axtarışındadır, kənar qüvvələr isə Ermənistanı silahlandırmağa davam edir". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib.

Deputat XİN başçılarının göründə tərəflərin hələ də uzlaşmadığı, ortaq mövqeyə gələ bilmədiyi məqamları müzakirə etdiklərini bildirib: "Azərbaycan və Ermənistan Rusiyada artıq neçənci dəfədir ki, keçirilən danışıqlar prosesi ətrafında sonradan yenidən başlamaq üçün manevr edirlər. Sülh sazişi imzalamağa çalışan iki ölkənin xarici işlər nazirləri Vaşinqton, Brüssel və Moskvada görüşüblər. İyun-iyul aylarında Azərbaycan və Ermənistan xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyan eyni platformanı bölüşüblər. İyunun sonunda iki ölkənin XİN başçıları ABŞ-a səfər edib, iyulun ortalarında Brüsseldə görüşüblər və həmin ayın sonunda danışıqlar üçün Moskvaya uçublar. Danışıqların coğrafiyası Cənubi Qafqazda baş sülhməramlı titulu uğrunda Qərb və Rusiya arasında rəqabətə işarə edir. Rusiyanın xarici işlər naziri Sergey Lavrov görüşün məqsədini "Cənubi Qafqazda uzunmüddətli sabitləşmə" adlandırıb. O, Moskvanın hansı rola arxalandığını qeyd edib. Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanmasına dair ən yüksək səviyyədə razılaşmaların həyata keçirilməsinə xüsusi diqqət yetirməyin lazım olduğunu bildirib. Məsələ bundadır ki, məhz kənar müdaxilələr səbəbindən hələ də sülhə yaxınlaşmaq mümkün olmur. Amma ilin sonuna qədər nəhayət sülh müqaviləsinin imzalanacağı proqnozlaşdırılır. Bu günə qədər Vaşinqtonda, Brüsseldə və Moskvada təmaslar qurulub, amma nəticə yoxdur. Nəticələr danışıqlar prosesinin dinamikasından bir qədər aşağıdır, lakin heç bir müsbət nəticənin olmadığını desək, yəqin ki, düzgün olmaz. Görüşlər, danışıqlar kifayət qədər intensiv xarakter daşıyır, bəzi məsələlərdə konkret nəticələr var, bəzi məsələlərdə bəzi perspektivlər var ki, orada tərəflər qarşılıqlı razılığa gələ bilərlər".

# "Prezidentin səsləndirdiyi fikirlər "Dəmir yumruğ"un ifadəçisinə çevrildi"



***"İyulun 21-də "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasiminin keçirilməsi, sözsüz ki, parlaq Zəfərimizin təntənəli sədalarındandır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən qələbəmizin rəmzi elan edilmiş Şuşa şəhərində keçirilən bu forum Qarabağ regionunun bütün dünyanın mədəni, iqtisadi, siyasi mərkəzlərindən birinə çevrilmək yolunda təşəkkül tapdığının təzahürüdür.***

Azərbaycan və Türkiyə arasında mövcud olan qardaşlıq əlaqələri regionda sabitliyin və inkişafın təminatlarından ən başlıcasıdır və forum çərçivəsində də bu mövzu məxsusi müzakirə edildi". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Jalə Əliyeva deyib.

Onun sözlərinə görə, 44 günlük Vətən müharibəsinin ilk günündən etibarən Azərbaycana mənəvi dəstəyini göstərən qlobal liderin – Türkiyənin Şuşa Bəyannaməsini imzalaması ilə rəsmi olaraq Azərbaycanın müttəfiqinə çevrilməsi regional təhlükəsizliyə də təminat vermiş olur: "Sözsüz ki, regional inkişaf əsasən Azərbaycanla Ermənistan arasında münasibətlərin yaxşılaşmasından asılıdır. Azərbaycan Respublikası bu istiqamətdə mümkün olan bütün addımları atmaqdadır və Qarabağ ermənilərinin nümayəndələri ilə təmasları həyata keçirmək üçün xüsusi nümayəndə təyin olunması da bunun bir nümunəsidir".

"Son iki il yarım ərzində baş verən bəzi hadisələr Ermənistana bir daha isbat etdirdi ki, Qarabağ Azərbaycandır və Ermənistan bu reallıqla barışmalı, rəsmi olaraq Azərbaycana qarşı ərazi iddialarından əl çəkməlidir. Azərbaycan dövlətinin 30 ildən çoxdur ki, öz dədə-baba yurdlarından didərgin düşən xalqın doğma evlərinə qayıtması istiqamətində geniş spektrli tədbirlər və layihələr həyata keçirməsi də vurğulanması zəruri olan məsələlərdəndir. Belə ki, artıq 30-dan çox şəhər və kəndin Baş planı təsdiqlənib və həm Qarabağ, həm Şərqi Zəngəzur rayonları üzrə təxminən növbəti üç il ərzində 150 mindən çox vətəndaşın doğma yurdlarına qaytarılması planlaşdırılır. Ümumilikdə Forumda Prezident İlham Əliyev tərəfindən səsləndirilən və bütöv bir regionun - Cənubi Qafqazın inkişafına, bölgənin xalqlarının rifahının yüksəlməsinə, sülhə, əmin-amanlığa, stabilliyə hesablanan bu və ya digər fikirlər, bir daha Azərbaycanın üstün mövqeyinin, dönməz iradəsinin, dəmir yumruğunun ifadəçisinə çevrildi"-, deyə o əlavə edib.

***Ləman Sərraf***

# Sosialyönümlü dövlət modeli

## *Prezident İlham Əliyev: "Müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib"*



Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ölkəmizdə dövlət başçısı tərəfindən həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biridir. Prezident İlham Əliyevin əhalinin sosial problemlərinin həllinə xüsusi diqqət və qayğı göstərməsi qazilərin, şəhid ailələrinin də həyat şəraitinin yaxşılaşmasına, onların ictimai hüquqlarının bərpa olunmasına şərait yaradıb. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər qazandığı 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırığına əsasən şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı genişmiqyaslı sosial dəstək paketi icra olunur. Belə ki, şəhidlərin ailə üzvləri və müharibə veteranlarından ibarət 103 min şəxsə 115 min aylıq sosial ödəniş təyin olunub, 3 696 şəxsə sığorta ödənişi edilib. 1997-ci il avqustun 2-dək hərbi xidmətdə aldığı xəsarətlə bağlı əlilliyi olan 17 234 şəxs üzrə birdəfəlik ödəmə verilib. Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanlara yönələn sosial ödənişlər hər il artırılıb, müharibə veteranlarına aylıq təqaüd təyin edilib. Statistik rəqəmlərə istinadən qeyd edək ki, Vətən müharibəsinin şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminat proqramı 5 dəfə genişlənib, onlara 5 000 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 324 avtomobil təqdim edilib. Ümumilikdə ötən dövrdə bu kateqoriyalardan olanlara 13 800 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olanlara 7 500-dən çox avtomobil verilib. Bütün sosial proqramlar kimi, şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin mənzil və fərdi evlə təminatı proqramı ildən-ilə uğurla davam etdirilir. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində dediyi kimi: ”Azərbaycan bu sahədə də dünya miqyasında ən qabaqcıl yerlərdədir. Dünyada müharibələr çox olub, itkilər çox olub. O qədər də uzaq olmayan tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib”.







### 3967 HƏRBİ QULLUQÇUYA ÖLKƏMİZİN ƏRAZİ BÜTÖVLÜYÜNÜN MÜDAFİƏSİ İLƏ ƏLAQƏDAR ƏLİLLİK TƏYİN OLUNUB

Şəhid ailələri üzvləri, müharibə iştirakçıları olan 11 min şəxsə 46 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. Müharibə ilə əlaqədar əlilliyi olan 1 941 şəxs 39 713 reabilitasiya vasitəsi, o cümlədən 432 şəxs 451 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub. Şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 18,7 min şəxsin məşğulluğu təmin edilib, o cümlədən 10 min şəxs özünüməşğulluq proqramına cəlb olunub. Vahid əlaqələndirmə mərkəzlərində həmin kateqoriyalara aid 88,3 min şəxsə xidmətlər göstərilib və s.

Bütün bunlarla yanaşı, 44 günlük Vətən müharibəsində yaralanmış və müalicə kursları tamamlanmış 4000-dək hərbi qulluqçuya əlillik təyin edilib. Artıq bu kateqoriyadan olan 3967 hərbi qulluqçuya ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik təyin olunub. Ölkəmizdə şəhid ailələrinə, müharibə əlillərinə, qazilərə, hərbçilərə və veteranlara göstərilən hərtərəfli qayğı nümunəvi xarakter daşıyır. Şəhid ailələrinin, Qarabağ müharibəsi veteranlarının və əlillərinin müdafiəsi həyata keçirilən sosial siyasətin mühüm tərkib hissəsidir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu kateqoriyadan olan insanlar bundan sonra da yüksək dövlət qayğısı ilə əhatə olunacaqlar.

Azərbaycan Prezidenti İlham Əliyevin bu təbəqədən olan insanların sosial problemlərinin həllinə xüsusi diqqət və qayğı göstərməsi vətəndaşlar tərəfindən böyük məmnunluqla qarşılanır. Ölkəmizdə şəhidlərə və onların ailələrinə, əlillərə olan münasibət dövlətimizin məqsədyönlü, düşünülmüş və ardıcıl siyasətidir. Bu dövlət başçısının siyasətinin əsasında ölkənin hər bir vətəndaşına münasibətdə ədalət və humanizm prinsipləri dayandığını bir daha təsdiqləyir.

Ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində aparılan işlər davam edir. Şəhid ailələrinə və müharibə əlillərinə ayrılan diqqətin nəticəsidir ki, bu gün onların sosial təminatı istiqamətində ardıcıl işlər görülür. Onu da vurğulayaq ki, cari ilin altı ayında 200 nəfərə yaxın şəhid ailələrinin üzvləri sanatoriya-kurort və müalicə mərkəzlərinə yola salınıb. Vətəndaşlar Naxçıvan Muxtar Respublikasındakı ”Duzdağ” Fizioterapiya Mərkəzi, ”Darıdağ” Arsenli Su Müalicəxanası, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi, Möcüzəvi Naftalan Sağlamlıq Mərkəzi, Şahdağ Quba Truskavets Tibbi sanatoriyası və digər mərkəzlərdə müalicə kursu keçiblər. Ümumilikdə postmüharibə dövründə yollayışla təmin olunaraq sanatoriya-kurort və müalicə mərkəzlərinə yola salınanlardan 917 nəfəri şəhid ailələrinin üzvləridir.

Bütün bunlar bir daha təsdiqləyir ki, respublikamızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizədə yenilməz rəşadət və misilsiz vətənpərvərlik nümunəsi göstərən vətən oğullarımıza və onların ailələrində dövlət qayğısı və diqqət davamlıdır.

***Nəzakət ƏLƏDDİNQIZI***


## “Nar” qəbul imtahanının bitməsi münasibəti ilə abituriyentləri təbrik edir




“Nar” qəbul imtahanlarında uğurla iştirak edən bütün abituriyentləri təbrik edir, həmçinin, bu imtahanlarda ən yüksək nəticə göstərən abituriyentləri mükafatlandıracağını elan edir. Belə ki, mobil operator gələcəyin tələbələrinə daha rahat ünsiyyət üçün smartfonlar, “Nar” mobil nömrələri və yüksək məbləğdə balans təqdim edəcək. Məqsəd universitet həyatına yeni başlayacaq gənclərin nailiyyətlərinə töhfə vermək və ali təhsilə daha yüksək həvəslə yanaşmalarına dəstək olmaqdır.

2018-ci ildən bu ənənəni davam etdirən “Nar” istedadları yetişdirmək və davamlı öyrənmə mədəniyyətini inkişaf etdirmək məqsədi ilə korporativ sosial məsuliyyət çərçivəsinin bir hissəsi kimi təhsilin təşviqinə fəal şəkildə dəstək olur. “Nar”ın sosial layihələri barədə ətraflı əlumatınar.az/projects səhifəsindən əldə edə bilərsiz.

Nar hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. Nar son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# İrəvanın real vəziyyəti: günah kimdədir?



## Ermənistan müxalifəti və hökuməti, əslində, eyni xəstə təxəyyülə bağlıdırlar



Paşinyanın məlum bəyanatlarından sonra Ermənistanın siyasi-ictimai kuluarlarında cərəyan edən hadisələr bir daha göstərir ki, düşmən ölkədə revanşçılıq hissləri səngiməyib və bu amil Ermənistanı, bütövlükdə isə erməni xalqını daha ağır situasiyalara doğru sürükləyir. Ola bilər ki, erməni baş nazir, necə deyərlər, çulunu sudan quru çıxarmaq istəyir. Amma fakt budur ki, Qərbi Zəngəzur istiqamətindən Naxçıvana qədər dəhlizin açılmaması tələbindən tutmuş, Qarabağdakı quldur rejimin fəaliyyətinin davam etdirilməsinə qədər baş verən bütün olaylar, həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, Ermənistanın ictimai-siyasi rəyi ümumiyyətlə, ölkələrinin Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəmir və niyyətləri də bu istiqamətə doğru köklənib. Təkcə Xəlfəli-Xankəndi yolu üzərində rus sülhməramlılarının separatçılara hərbi texnika daşımaları faktı özü-özlüyündə hər şeyi göstərir.

Beləliklə, maraqlıdır ki, bu gün yalnız erməni müxalifətçiləri deyil, həm də hökuməti hər vəchlə üçtərəfli bəyanatın, habelə sonradan razılaşdırılan qərarların icrasına ciddi maneələr törədirlər – müxalifətçilər hay-küy qaldırmaqla, hökumət isə zaman qazanmaq və çıxış yolları tapmaq vasitəsi ilə. Hansı ki, hər iki cinah dalana söykənib və əgər belə vəziyyət davam edərsə, bunun nəticəsi həqiqətən də, onlar üçün çox acınacaqlı ola bilər.

### Vazgen Petrosyan: "Ermənistanla Azərbaycan arasında delimitasiya və demarkasiya aparılacaqsa, bu zaman ermənilər ömürlük Qarabağ və Naxçıvan barədə unutmalıdırlar"

Bu arada, erməni politoloqu, "Ermənistanın xalq hərəkatı" adlı təşkilatının rəhbəri Vazgen Petrosyanın fikirlərinə də diqqət yetirmək olar. O, iddia edib ki, Ermənistan gərək öz baxışlarını yenidən nəzərdən keçirsin. "Əgər biz istəyiriksə ki, səsimiz dünyada yenidən eşidilsin, əgər biz istəyiriksə dünyada öz yerimiz və rolumuz olsun, onda yenidən bir olmalıyıq", deyə pafosla danışan Vazgen Petrosyan sözügedən xüsusda bildirib ki, Ermənistanla Azərbaycan arasında delimitasiya və demarkasiya aparılacaqsa, bu zaman ermənilər ömürlük Qarabağ və Naxçıvan barədə unutmalıdırlar.



Daha bir erməni siyasətçisi Arman Abovyan tv verilişlərinin birinə çıxaraq həyasızcasına bəyan edib ki, ermənilərə zaman lazımdır və onlar Bakıya, Gəncəyə, eləcə də Azərbaycanın digər bölgələrinə qədər irəliləyərək "erməni torpaqlarına" yiyələnəcəklər. Bu məxluq Bakını "bakurakert", Gəncəni isə "qandzak" adlandırıb və bildirib ki, Azərbaycanın dərinliklərinə qədər hər bir azərbaycanlı müharibənin onların evlərinə gələcəyini bilməlidirlər və bunun üçün ermənilər hərəkətə keçməlidirlər.

Göründüyü kimi, bu gün erməni ictimai-siyasi rəyində əsas çoxluq revanşçılıq, işğalçılıq meyilləri və qonşularının torpaqlarına göz dikmək xəstəliyi qalmaqda davam edir. Bu xəstəliyin sağaldılması üçün mütləq alternativ variantların həyata keçirilməsi zərurətə çevrilir. Baxın, bütün dünya, beynəlxalq strukturlar və hüquq mərkəzləri Azərbaycanın ərazi bütövlüyünü tanıyır, suveren hüquqlarını tanıyır, amma qədim Azərbaycan torpaqları üzərində qurulmuş saxta "Ermənistan", hətta başı 44 günlük müharibədə və daha sonrakı məlum hadisələrdə əzilsə belə, yenə də həmin xəstəliyindən xilas ola bilmir. Və bu gün Zəngəzurda, Qarabağda erməni əsgərləri ölürsə, onların qanları heç də Azərbaycanın üzərində deyil, bu məsuliyyət, günah məhz bənzər çağırışlar edən daşnak xislətli, xəstə təxəyyüllü ermənilərin üzərindədir!

### Bu xəstə məxluqlar öz kirli xislətlərinin və riyakar məramlarının başqa millətlərdə və xalqlarda da olduğunu sanırlar

Gəlin həmin xəstə təxəyyüllü erməninin digər ifadəsinə diqqət yetirək: "Əgər biz Azərbaycanın ərazi bütövlüyünü tanısaq, türklərin (yəni, azərbaycanlıların) tələbləri onları Naxçıvanla bağlayacaq hansısa növbəti yolun verilməsi ilə bağlı olacaq. Bundan sonra pantürkist proqramı realizə ediləcək və Ermənistanın, erməni xalqının mövcudluğu yalnız zamanın sualı olaraq qalacaq".

Bir daha göründüyü kimi, bu xəstə məxluqlar öz kirli xislətlərinin və riyakar məramlarının başqa millətlərdə və xalqlarda da olduğunu sanırlar, halbuki Azərbaycan dövləti heç vaxt başqalarının torpaqlarına göz dikməyib, işğalçı siyasət yürütməyib, təcavüzkarlıq meyillərindən uzaq olub, əksinə, Ermənistan və onun daşnak xislətli dövlət siyasəti, eləcə də xalqının böyük kəsimi həmin maraqlarla yaşayıb və fakt olaraq yaşamaqdadır. Özü də yalnız Azərbaycana qarşı deyil, Gürcüstana, İrana, Türkiyəyə, hətta Rusiyadakı vilayətlərə qədər torpaq iddialarında olan bu rüsvayçı, riyakar məxluqlar bütövlükdə regionun inkişafı və tərəqqisinə ciddi maneələr törədirlər. Nəticədə isə, olan-olur və bunun da səbəbkarları elə onların özləridir.

**Afət Tahirqızı**

# AXCP və bir haya bənd məsələsi...



## TƏRS BAXIŞ

***AXCP-nin və "milli şura"nın bu günlər üzü gülür. Nə üçün. Mən deyim, siz də dinləyin. Bu yığnaq illərdir, hər gün bir bəhanə axtarıb ki, bununla bir haya bənd olaraq özünü büruzə versin, varlığını hiss etdirsin. Axı nə qədər otaqlarda yatmaq, xəyala dalmaq, düşünmək olar. Axı nə qədər vəzifə, kürsü, hakimiyyət xəyalı qurmaq olar? Odur ki, Qubad İbadoğlunun hüquqi məsuliyyətə cəlb edilməsi bu yığnaq üçün bir bəhanə olub.***

İnanın Allaha da, Qurana da ki, məqsəd Qubad İbadoğlunun məsuliyyətə cəlb olunmasına narahatlıq deyil, bir haya bənd olub toplaşmaq arzusudur. Ki, onu da Qubad İbadoğlu bunlara ərməğan edib. Yoxsa AXCP hamıdan yaxşı bilir ki, heç kim günahsiz olmadığı təqdirdə həbs edilə bilməz. Deməli, günahın var ki, həbs olunmusan. Həm də bu məsələ hüquq-mühafizə orqanlarının işidir. Buna AXCPşou-nun qarışmağa ixtiyarı yoxdur. Çünki istintaq davam edir.

### AXCP "narazılığını" bildirmək üçün çağırış edir. Ha çağırın, görək, sizin səsinizə səs verən olacaq?

Bunların damağında 1992-1993-cü illərin dadı qalıb ey, deyəsən. O illər ki, məqsədli çağırış edirdi, bunların da səsinə səs verən olurdu. Gedirdilər ki, görək nə deyirlər? Bunlar da deyirdilər ki, bəs, sərhədlərdə vəziyyət pisdir, ay camaat, gəlin pul toplayaq, silah alaq. Yazıq camaat da inanıb o kasıb illərdə əlində olanı bunlara verirdi. Axırda da hamı şahidi oldu ki, o pulları AXC-Müsavat cütlüyü yeyib, üstündən də su içdi. Axı torpağı satan nə üçün qalxıb silah almağa cəhd etməli idi ki? Kimə atacaqdı o silahı?

Bax, vaxtilə xalqı belə bayağı əyləncələrinizə cəlb edirdiniz. Həqiqətən şou göstərirdiniz meydanda. Bu günün prizmasından baxanda adam yerinizə xeyli utanır.

Keçmiş olsun, AXCP, çox təəssüf ki, çağırışınıza səs verən, boş xülyalarınıza inanan bircə adam da yoxdur ölkədə. Hərdən ətrafınıza yığdığınız, saxta sənəd vədləri ilə gözlərini boyadığınız adamları çıxmaq şərtilə, ta siz tərəfə kiminsə gəlməsi mümkün deyil. O 3-5 adam da özünüzünkülərdir ki, artıq onlar da sizdən üz çevirməkdədirlər. Bu xalqın isə sınağından üzüqara çıxmışınız. Siz hara, sizi tanıyanlar hara?

Camaatın dərdini Allah tökūb ki, bu istidə gəlib görələr, nə deyirsiniz. Nə deyəcəksiniz axı. Yəni danışmağa bir sözünüz qalıb? 90-cı illərdə o qədər danışdınız, faydası nə oldu? Heç nə... O oldu ki, insanlar sizin məqsədinizi, məramınızı, amalınızı öyrəndilər. İndi Qubad İbadoğlunu bəhanə edib yenə şou göstərmək fikrinə düşmüşünüz. Lakin faydasızdır. Adamın gülməyi gəlir ey...

Yəni özünüzü inandırmağa çalışırsınız ki, ağlını sizin ağlınıza verən tapılar. Deyim ki, əsla. Məsləhət bilirəm ki, bu isti havada özünüzə belə sitəm etməyəsiniz. Çünki varlığınız qədər, düşüncəniz də isti havaya dözümsüzdür.

**Mətanət Məmmədova**

***Bir çox insanlar hesab edir ki, yazıçılıq yaradıcı sahə olduğu üçün hansısa müəssisədə tədris edilməsinə gərək yoxdur. Bəs, rəssamlıq, müğənnilik, heykəltəraşlıq, rejissorluq, ssenaristlik bəstəkarlıq və digər yaradıcı peşələr tədris edilərkən niyə yazıçılıq üçün də xüsusi tədris yoxdur? SİA bu barədə araşdırma aparıb.***

# Yazıçılıq öyrədilə bilər, yoxsa fitri istedaddır?

## Peşəkar yazıçılığın tədrisi dünya təcrübəsində var

Yazıçı kimi inkişaf etmək üçün ən uyğun ali təhsil jurnalistika, dil və ədəbiyyat fakültələri hesab edilir. Lakin dünya təcrübəsində ali təhsil müəssisələrində yaradıcı yazı və texniki yazı sahələri üzrə ixtisaslaşmaq üçün ayrıca ixtisaslar mövcuddur. Belə ki, yaradıcı və ya kreativ yazıçılıqda yazarın təxəyyülü və fantaziyası ön plandadır. Bu sahəyə şeir, roman, qısa hekayələr kimi daha çox emosional yük daşıyan yazı növləri mövcuddur. Yaradıcı yazıçılıq üzrə ABŞ-ın Miçiqan Universiteti, Braun Universiteti, Kolumbiya Universiteti kimi nüfuzlu ali təhsil ocaqları yazıçılar yetişdirir.

Texniki yazıçılıqda təxəyyülə yer yoxdur. Texniki yazıçılar dərsliklər, təlimatlar, akademik jurnal məqalələri kimi layihələr üzərində işləyir və dəqiqliyi təmin etmək üçün araşdırma aparırlar. Onlar, həmçinin qrammatika, sintaktis və diksiyanı yoxlayaraq məqalələri redaktə edirlər. Bu ixtisas üzrə də ABŞ-nin Şimali Karolina Ştat Universiteti, Şimal-Şərq Universiteti, Texas Texnologiya Universiteti və s. təhsil müəssisələri ali təhsil təklif edir. Həmçinin, yazıçı olmaq arzusunda olanlar üçün müəyyən kurs və proqramlar da vardır.

Bundan əlavə, universitet səviyyəsində alim və pedaqoq kimi akademik işləmək istəyən tələbələr üçün yazıçılıq üçün doktorantura proqramları da mövcuddur.

Azərbaycanlı yazıçılar üçün isə yazıçılıq sahəsi üzrə ali təhsil ala bildikləri təhsil müəssisəsi isə Maksim Qorki adına Ədəbiyyat İnstitutu olub. Əli Kərim, Nəbi Xəzri, Asif Əfəndiyev, İsa Hüseynov, Əkrəm Əylisli, Nəriman Həsənzadə, Fikrət Qoca, Salam Qədirzadə, Səfər Alışarlı, Natiq Rəsulzadə, Nəsib Nəbioğlu, Umud Rəhimoğlu, Nazim Əhmədli, Saday Budaqlı, Maarif Soltan, Zahid Sarıtorpaq, Murad Köhnəqala, Şaiq Vəli, Etimad Başkeçid, Orxan Fikrətoğlu kimi nüfuzlu yazıçı və şairlər bu təhsil ocağını bitiriblər.

**Maksim Qorki adına Ədəbiyyat İnstitutunu bitirən Azərbaycan Respublikasının Xalq yazıçısı Natiq Rəsulzadə deyir:** "Maksim Qorki adına Ədəbiyyat İnstitutunda Azərbaycan da daxil olmaqla 250 milyon nəfərlik ölkədən cəmi 500 nəfər - 250 tələbə əyani, 250 tələbə qiyabi oxuyurdu. Yəni, bu qədər böyük ölkə üçün çox az idi və qəbul olmaq üçün dəhşətli rəqabət var idi. Mən də oraya qəbul oldum və təhsil aldım. Məlumdur ki, M.Qorki adına institutu Nəbi Xəzri, Cabir Novruz, Əkrəm Əylisli və s. kimi Azərbaycanın tanınmış şəxsləri bitirib. Dövrünün çox böyük təhsil ocağı idi və şöhrəti indiki dövrə də gəlib çıxıb, hələ də haqqında danışılır. Lakin heç bir institut insanı nə yazıçı, nə bəstəkar, nə rəssam edə bilməz. Bu, insanın içində olmalıdır, əgər o insanın istedadı yoxdursa, 5 il yox, 15 il də institut oxusa, o institut onu yazıçı edə bilməz. Ona görə də





M.Qorki adına Ədəbiyyat İnstitutunu oxuduğum dövrdə keçirilən sınaq imtahanları kimin yazıçı olub-ola bilməyəcəyini aşkar edirdi. Baxmayaraq ki, Sovet İttifaqı qapalı bir ölkə idi, bizə dərs deyən yazarlar, şairlər, dramaturqlar dünyada tanınmış şəxslər idi və bizə müsbət təsirləri olurdu. Tələbə kimi bizə çox böyük müsbət təsirləri var idi, onlar bizə öz təcrübə və istedadları ilə təkan olurdu və öz yolumuzu özümüz axtarırdıq.

Yazıçı kimi yetişməkdə ən böyük amil budur ki, insanda yazıçılıq istedadı ya var, ya da yoxdur. İstedad kimi bunları nəzərdə tuturam: İnsanda yaradıcılıq, intuisiya, duyğu olmalıdır, ölçü hissi olmalıdır. Bunlar varsa, yazıçılıq yolunu getmək asandır.

Yazıçı olmağı arzu edənlərə məsləhətim budur ki, özlərini dinləsinlər. "Doğrudanmı mən yazıçı olmaq istəyirəm? Doğrudanmı mən yazıçılıq sənətini öyrənə bilərəm və bu yoldan gedə bilərəm?" suallarını özlərinə versinlər. Çünki yazıçılıq indiki zəmanədə çox çətindir, bu sənətlə pul qazanmaq qeyri-mümkündür. Mən özüm peşəkar yazıçıyam - Xalq Yazıçısıyam, buna baxmayaraq, mənim Mədəniyyət Nazirliyindəki 4 layihəm bir neçə ildir həyata keçirilmir. Buna görə də, təsadüfi yazıçılığa, kinoya gələn gənclər avara qalır. Yazıçı olmaq istəyənin əgər ürəyi yazıçılıq eşqi ilə döyünmürsə, yarı yoldan qayıtsınlar, çünki zərərin yarısından dönmək də xeyirdir. Lev Tolstoyun belə bir sözü var: "Yazmaya bilmirsənsə yazıçı ola bilərsən"".

## Bəs Azərbaycanda yazıçılığın ayrıca tədris edilməsi praktikası olub? Belə sistemə ehtiyac var?



**Azərbaycan Yazıçılar Birliyinin Yaradıcılıq məsələləri üzrə katibi, şair, yazıçı, kinodramaturq İlqar Fəhmi bu barədə deyib:** "Azərbaycanda yaradıcılığın tədrisi uzun illər çox zəif olub. Sovet dövründə də az idi. Məsələn, tələbələr SSRİ-nin Moskva, Leninqrad kimi şəhərlərinə təhsil almağa gedirdilər. Daha sonralar Azərbaycanda yaradıcılığın başqa sahələrinin tədrisinə başlanılsa da, məhz ədəbiyyatda bu, baş vermədi. Məsələn, konservatoriyada musiqişünas fakültəsi, musiqi tarixçisi, bəstəkarlıq ayrıdır. Rəssamlıqda sənətşünas, araşdırmaçı, rəngkarlıq, qrafik dizayn, heykəltəraşlıq ixtisasları ayrıdır. Yəni, bu ixtisaslarda əsərin yaradılması öyrədilir. Rejissorluqda da – sənətşünaslıq, teatrşünaslıq, kinoşünas, sırf səhnə qurmaq rejissorluğu ayrıca tədris edilir. Ədəbiyyat üzrə isə Azərbaycanda yalnız filoloq hazırlanır, lakin sənətin özünü yaratmağın bir fakültəsi, yəni şairlik, yazıçılıq üzrə nəsə yoxdur.

Bu da bizim xalqın ədəbiyyata münasibətindən irəli gəlir. Yazıçılıq və şairlik həmişə istedad faktoru üzərində olub, şəxs istedadlıdırsa, yazmalıdır və heç bir çərçivə yoxdur. Halbuki, tarixdə, qədim dövrlərdən bunun öyrədilməsinin ənənəsi olub, özəlliklə şeirdə. Qədim dövrlərdə bizim mədrəsələrdə, darülfünunlarda şeir yazmağın tədrisi vardı. Metodikaya görə, şeir/qəzəl yazmaq üçün ən azından on min beyt əzbərlənməlidir. Şagirdlərə birinci növbədə çoxlu şeir əzbərlədilirdi, növbəti mərhələlərdə təxmis və nəzirələr yazılmalı idi. Necə ki, rəssamlıqda məşhur rəssamların əsərlərindən "kopya"lar edirlər, burada da məqsəd əlin işləməsi və buna alışması idi.

Amma Sovet dövründə yazıçılığın tədris edilməməsi bəlkə də Rusiyanın bir siyasəti idi. Yaradıcılıqla bağlı fakültələr, əsasən, Moskvada cəmlənmişdi. SSRİ-nin yaxşı ssenaristi, yaxşı yazıçısı, yaxşı rəssamı milliyyətindən asılı olmayaraq yalnız Moskva və ya Leninqradda təhsil alıb öz ölkəsinə qayıtmalı idi. Əlbəttə, orada da təhsil alanın şüuru və ideyaları SSRİ-nin ideologiyasının təsirinə düşüb uyğunlaşdırılırdı. Bir sözlə, digər sənətkarlıq sahələrində məktəblər yaradılsa da, yazıçılıq məsələsinə ciddi yanaşılmadı. Yazıçılığın özünün müəyyən mexanizmləri olsa da, bu, bizdə tətbiq olunmur. Filologiya, jurnalistika fakültələrində müəyyən yazı növləri öyrədilmə metodları var, yəni publisistika, oçerklərin, felyetonların quruluşu öyrədilir. Filologiyada isə müəyyən inşalar, hansısa bədii əsərin analizi yazdırılsa da, bunlar orijinal bədii yazılar hesab edilmir. Yalnız İncəsənət Universitetində ekran dramaturgiyası fakültəsində araşdırmaçılıq yox, birbaşa konkret ssenari yazmaq tədris edilir. Mən orada diplom komissiyasının sədriyəm.

Yazıçılığın tədrisinə cəhd də etmişik. Xəzər Universitetində kreativ yazı fənnini tədris edirdim. Amma bu, yenə də yazıçılıq və ya şairliyin öyrədilməsi deyildi. Sadəcə, jurnalistika və filologiya fakültələri üçün "orijinal yazı necə yazılmalıdır" dərsi tətbiq edilirdi".

İlqar Fəhmi yazıçılığın ayrıca peşə kimi tədris edilməsinə ehtiyac olduğunu düşünür: "Bizim indiki ədəbiyyatda elə bir xaos əmələ gəlib ki, kim nə istəyirsə, gündəlik səviyyəsində yazı yazırsa, bunu roman adı altında çap etdirir. Bunun da mexanizmləri heç yerdə öyrədilmir. Ədəbiyyatda heç bir mexanizmə ehtiyac yoxdur, ədəbiyyat insan hiss və duyğularının, həyat hekayələrinin təsvirdir və burada müəyyən mexanizmlərin tətbiqi gərəkli deyil kimi yanlış düşüncə cəmiyyətə hakim olub.

İndiki dövrdə çox kitab çap edilir, məhz bu dövrdə oxucunu smartfonlardan ayırıb kitab oxutdurmaq üçün yazıçı çox düşünməlidir. Sadəcə, hadisəni danışmaq kifayət etmir, oxucu kitabı əlinə götürəndə bilməlidir ki, oxucu bu kitabda yazılan şeyi nə televiziyada, nə də internetdə tapa biləcək. Oxucu asanlıqla tapa bildiyi maraqlı hadisəni bilmək üçün niyə iki gününü sərf edib kitab oxumalıdır?

Yazarın uydurduğu həyat hekayətinin real versiyasını tamaşaçı televiziyada görə bilir. Ona görə də bədii əsər elə olmalıdır ki, oxucu heç yerdə tapa bilmədiyi materialı orada tapa bilsin. Çünki, reallıq heç vaxt dramaturji model üzərində irəliləmir. İnsan beynində nizam-intizam tələbi var. Real hadisələrdə bu, olmur. Yazar da bu hadisələri nizama salıb oxucu üçün daha rahat qəbul edilə bilən hala salmalıdır. Adi yemək bişirməyin, saç kəsməyin, paltar tikməyin öz qayda-qanunu varsa, niyə yazıçılığın məktəbi olmasın? Yazıçılıq aşpazlıqdan daha az məsuliyyətli işdir? Burada "hər şey sərbəst olmalıdır" deyən yazıçıların kitablarını oxuyan yoxdur. Yazıçılığın tədrisinin mahiyyəti də budur.

İndiki Azərbaycanda peşəkar yazı modellərini mənimsəyən təxmini on faiz yazıçı var. Məzmunu çıxmaqla, sovet dövrünün əsərləri quruluş olaraq yaxşı səviyyədədir.

Yazıçılıq kursları və ya təlimləri olsa, iştirak edərəm. Sadəcə ali məktəb səviyyəsində tədrisi daha yaxşı olar. Yazıçılıq bir neçə aya öyrəniləsi model deyil. Roman janrının yüzlərlə növü var, hekayənin onlarla növü var. Kökdə quruluş eyni olsa da, "üstünü" düzəltməyi də öyrənmək lazımdır. Yazıçılığın istiqamətləri o qədər çoxdur ki, bir istiqamətini kurslarda və ya emalatxana şəraitində bir neçə aya tədris etmək olar. Yazıçılığı geniş şəkildə öyrənmək üçün isə ali məktəblərdə, Moskvadakı M. Qorki institutu kimi təhsil ocaqlarında 5 illik öyrənmək lazımdır".



**Yazıçı, şair, publisist Aqşin Yenisey isə yazıçılığın tədrisi barədə bunu düşünür:** "Rejissorlara, rəssamlara, dizayner və heykəltaraşlara universitetlərdə öyrədilənlər, aşağı-yuxarı Azərbaycan universitetlərində filoloqlara öyrədilir. Əsas olan sənət adamına öyrədilən deyil, onun özünün öyrəndiyidir. Filoloqların hamısı yazıçı olmadığı kimi, rəssamların, rejissorların, heykəltaraşların da hamısı öz sənətinin yolunu getmir. Biz də indi qeyri-rəsmi olaraq ADU-da "Yaradıcılıq fakültəsi" var və burada yaradıcılıqla bağlı ustad dərsləri keçilir. Amma bu dərslər yaradıcılıq prosesi haqqında ümumiyyətlə məlumatsız olanlar üçün maraqlı və faydalıdır. Əsl yazıçılar həmişə auditoriyalarda, kabinetlərdə deyil, cəmiyyətin ən qarışıq mühitlərində yetişiblər. Yazıçının materialı canlı insandır, onun təbii halına heç bir məktəbdə rast gəlmək mümkün deyil. Ona görə yazıçılar, şairlər, adətən, tədrisə xor baxan tələbələrin arasından çıxır. Əlbəttə, indiki İncəsənət Univesitetinin təhsil fəlsəfəsini dəyişərək ümumi bir mədəniyyət mütəxəssisləri hazırlayan ocağa çevirmək olar. Bu, əlbəttə ki, Azərbaycan mədəniyyətində də, ədəbiyyatında da keyfiyyət dəyişikliyinə, mədəni sahələr arasında şəbəkələşməsinin universitet mühitində formalaşmasına fayda verə bilər. Amma məktəbdən dahi gözləməyin praktik əsası yoxdur".



**Azərbaycan Yazıçılar Birliyinin üzvü, yazıçı, şair Seyran Səxavət isə bu ideyanın tamamən əsassız olduğunu düşünür və yazıçılığın tədrisini mənasız hesab edir:** "Yazıçılıq elə bir şeydir ki, bunun konkret resepti olmur. Yazıçılıqda əsas istedaddır. Digər gərəkli bacarıqlar isə iş prosesində özünü göstərir və bir iş başa gətirmək mümkün olur. Yazıçılıq məktəbi deyə bir anlayış isə olmur - yazıçılıq vergidir, anadangəlmə istedaddır. SSRİ vaxtı Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutu var idi, buraya bütün respublikadan müxtəlif istedadlı uşaqlar qəbul edilirdi. Amma bu, o demək deyildi ki, bura yazıçılıq məktəbi idi, orada sadəcə istedadlı uşaqlara ümumi dünya görüşü, dünya ədəbiyyatı haqqında təsəvvür yaradırdılar. Sabah kimsə öz istedadsız övladını aparıb yazıçı məktəbinə qoysun, o da həmin məktəbi qırmızı diplomla bitirsin və yazıçı olsun deyə bir anlayış yoxdur və ola da bilməz".

***Aysel Naibli***



# Bəşəriyyət üçün ən təhlükəli toplum ermənilərdir

*Dünyanın tanınmış tədqiqatçılarının, tarixçilərinin araşdırmaları ilə sübuta yetirilib ki, erməni toplumu bəşəriyyət üçün arzuolunmaz toplumdur. Eyni zamanda təsdiq olunur ki, ermənilər vəhşi xalqlar sinfinə aiddir və düşdükləri yerdə, yaşadıqları ərazilər də dağıntılara, insan qırğınlarına yol verirlər. Misal olaraq, ermənilərin son iki yüz il ərzində iki milyona yaxın azərbaycanlını qətlə yetirməsini və yüzlərlə yaşayış məskənini dağıdıb, yer üzündən silmələrini göstərmək olar.*





Xarici güclərin dəstəyi ilə Azərbaycan ərazilərinə köçürülən ermənilər özlərinə müvəqqəti sığınacaq əldə etdikdən sonra minlərlə azərbaycanlı soqırıma məruz qalıb, evləri-eşikləri dağıdılıb, şəhər və kəndlər yer üzündən silinib. 1905-1906-cı illərdə, habelə 1918-1920-ci illərdə İrəvanda, Dərələyəzdə, Zəngəzurda, Gəncədə, Şamaxıda, Göyçədə, Tiflisdə, Naxçıvanda, Bakıda, Gəncədə, Şamaxıda, Qubada, Lənkəranda, Muğanda, Qarabağda və digər tarixi torpaqlarımızda dinc əhali ermənilər tərəfində qətliamlara məruz qalıblar. Erməni vəhşiliyi sonrakı illərdə də davam etmişdir. 1937-1938, 1946-1947, 1953-1954-cü illərdə yüz minlərlə azərbaycanlı tarixi torpaqları olan Qərbi Azərbaycandan deportasiya edildi. Köçürülən insanlar yeni ərazilərə, yeni təbiət aləminə uyğunlaşa bilmədiklərindən həyatlarından oldular.

## Erməni vəhşiliyi dünyanı sarsıdıb

Erməni vəhşiliyi, Azərbaycan xalqına qarşı soyqırımı siyasəti 1988-ci ildən daha amansız və sürətlə aparıldı, nəticədə, 250 min soydaşımız İrəvandakı, Gorusdakı, Dərələyəzdəki, Qafandakı və digər doğma yurdlarında dişləri, dırnaqları, min bir əziyyət və zəhmətlə qurduqları ev-eşiklərindən oldular. Erməni vəhşiliyi Qarabağı işğal etdiyi zamanda davam etdirildi. Xaricdəki qüvvələrdən hərbi, siyasi dəstək alan erməni terrorçu hərbi birləşmələri Qarabağı işğal edib, 1 milyona yaxın insanı ev-eşiyindən didərgin saldılar. Ermənilərin vandal hərəkətlərinə və soyqırımı siyasətinə yalnız 2020-ci il 27 sentyabrında başlayan və 44 gün davam edən hərbi əməliyyatlarla son qoyuldu. Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Şuşa şəhərində cıxışı zamanı demişdir: "Noyabrın 8-də qədim Şuşa şəhərimizi düşməndən azad edərək Azərbaycan parlaq qələbə qazandı. Şuşanın işğaldan azad edilməsi böyük qəhrəmanlıq, peşəkarlıq, milli ruh tələb edirdi. Azərbaycan hərbçiləri bütün bu ülvi xüsusiyyətləri nümayiş etdirmişdir".

Ermənistanın Azərbaycan torpaqlarını işğalı zamanı məscidlər, mədrəsələr, körpülər, məbədlər nəinki dağıdılmış, eyni zamanda, bir çox hallarda təyinatına uyğun olmayan şəkildə istifadə olunaraq xalqımızın milli-mənəvi dəyərləri təhqir edilmişdir. Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri və s. bu sırada vurğulanmalıdır. Qaraağac qəbiristanlığında yerləşmiş yerli əhəmiyyətli memarlıq abidəsi olan Uğurlu bəyin türbəsi də daxil olmaqla XIX əsrə aid 4 türbə tamamilə məhv edilmişdir. Ağdam şəhərində yerləşən Pənahəli xanın və Mehdiqulu xanın türbələri dağıntılara məruz qalmış, işğalçı Ermənistan tərəfindən abidələrə ciddi ziyan dəymişdi. Erməni silahlı qüvvələri tərəfindən ən çox dağıdılan daşınmaz mədəni irs nümunələri olan məscidlər, türbələr və digər inanc yerləridir ki, bu da erməni vandallığının göstəricisidir.

## Ermənilər vəhşi əməlləri ilə insanlığı təhdid edirlər

Ermənistanın mədəniyyət obyektlərinə, dini-mədəni irsimizə qarşı bu cür vandalizm aktları bir çox beynəlxalq sənədlərə, o cümlədən 1954-cü ildə Haaqada qəbul edilmiş "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında Konvensiya"nın, "Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasının, "Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında Konvensiya"nın müddəalarını kobud şəkildə pozmuşdur. Bütün qeyd olunan bu və digər abidələrimizlə yanaşı, Ermənistan ərazisində məhv edilən Azərbaycan abidələrini də qeyd etməliyik. Zəngəzurdan İrəvana qədər dağıdılmış tarixi abidələr erməni vandallığınının bariz nümunəsidir. 1988-ci ildə Zəngəzurda, Göyçədə, Dərələyəzdə, İrəvanda, Vedidə yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovulmağa başladılar. Kütləvi terrora məruz qalan azərbaycanlılar məcburiyyət qarşısında qalıb öz dədə-baba yurdların tərk etdilər. Bu ərazilərdə onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edildi. Erməni vəhşi toplumu 600-ə yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər Ağa məscidini, Aşağı Gövhər Ağa məscidi, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evinin, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər.

İşğaldan azad edilən ərazilərin hər bir cığırında, yollarında, yaşayış məskənlərində erməni vəhşiliyinin, vandalizmin izləri görünməkdədir.

Ərazilərə səfər etmiş xarici tədqiqatçılar, dövlət adamları ermənilərin törətdikləri vandalizm aktlarından dəhşətə gəldiklərini dilə gətiriblər. Bütün bunlar bir daha təsdiq edir ki, erməni toplum sivil, demokratik dünya üçün təhlükə mənbəyidir. Bəşəriyyətin dinclik tapması, xalqların bir-birinə hörmət və rəğbətinin, səmimi münasibətinin artması üçün gərəkdir ki, erməni toplumu susdurulsun, bəşəri varlığın yaşam xəritəsindən birdəfəlik silinsin. Bu halda dünya rahat və təhlükəsiz yaşayışını təmin edə bilər.

**İ.ƏLİYEV**



# Sən belə deyildin əzəl, ay ŞUŞA!

## İşğaldan viranə halda qurtarılan Şuşada 3 ildə möcüzələr yaradılıb

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*








***Azərbaycanın mədəniyyət paytaxtı hesab edilən Şuşa şəhəri özündə əks etdirdiyi mədəni nümunələrlə orta əsrləri tərənnüm edir. Tarixi binaları, bulaqları, təbiəti ilə gözəllik mücəssəməsi olan Azərbaycanın nazlı gözəlinin gözəlliyindən işğaldan azad edildikdən sonra əsər-əlamət qalmamışdı.***

### İlk müəssisə - bərəkət rəmzi çörək

Şuşada ilk istehsal müəssisəsi çörək istehsalı sahəsində oldu. Axı qədimdən bəri çörək bizim evimizin, elimizin bərəkəti hesab olunub. İşğaldan azad olduqdan sonra cəmi 20 günə burada çörək istehsalı zavodu quruldu. Həmin zavodda Şuşanın suyu ilə bişən çörəkdən yemək mənə də qismət olmuşdu, 2021-ci ildə Şuşanı görməyə gedəndə Yuxarı Gövhər Ağa Məscidinə doğru gedəndə burnumuza çörək ətri gəldi. Yaxınlıqda çörəkxana işləyirdi. Kimisi Şuşa çörəyi dedi adına, kimisi Qala çörəyi. Kiçik, yumru, pambıq kimi çörəklər idi. Alıb Bakıdakı şuşalılara gətirdim.

Müəssisə ilk günlərdə gündəlik olaraq 2 çeşiddə 5000 ədəd çörək istehsal edirdi, indi istehsal gücünü artırıb. Çünki əvvəl bölgədə xidmət aparan əsgər və zabitlərimizi çörəklə təmin edirdi, sonralar Şuşada fəaliyyət göstərən dövlət və qeyri-dövlət müəssisələri, otel və iaşə obyektləri üçün istehsalını gücləndirməli oldu. Fasiləsiz işin təşkili məqsədilə müəssisə fərdi generatorla, su sistemi ilə təmin olunub.

### Şuşanın müasir yaşayış kompleksi göz oxşayır

Şuşada 23 binadan ibarət yaşayış kompleksi də tikilib. Kompleksin ümumi sahəsi 8 hektara yaxındır. Burada 8 binanın tikintisinə ötən il iyulun 1-də, 15 binanın inşasına isə sentyabrın 1-də başlanılıb. Kompleksin tikintisinin bu ilin sonunda başa çatdırılması planlaşdırılır. Yaşayış kompleksində ümumilikdə 450 mənzil istifadəyə veriləcək. Burada 28 birotaqlı, 195 ikiotaqlı, 190 üçotaqlı, 30 dördotaqlı və 7 beşotaqlı mənzil olacaq.

Bu kompleksdəki mənzillərin əksəriyyəti keçmiş məcburi köçkünlərin istifadəsinə veriləcək. Mənzillərin bir hissəsi isə Şuşada çalışan işçilərin xidməti istifadəsi üçün nəzərdə tutulub. Üçmərtəbəli və beşmərtəbəli binalardan ibarət kompleksdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılacaq. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.

### Xan qızı yenə Şuşaya can suyu verir

Şuşanın "Xan qızı" bulağı da yenidən bərpa olundu, Natəvan bulağından yenə su gəlir. Xan qızı bulağı — Şuşada Çöl Qala məhəlləsində Xan qızı Natəvanın sarayının yanında yerləşir. Bulaq XIX əsrdə Xurşidbanu Natəvanın sifarişi ilə tikilib. 1992-ci ilin 8 may tarixində Şuşa işğal edildikdən sonra bulaq baxımsız qalıb. Nəticədə bulağın suyu quruyub, özü isə baxımsız vəziyyətə düşüb.

Bulaq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci ildə verdiyi 132 nömrəli qərar ilə yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına salınıb. 2020-ci ildə Şuşa İkinci Qarabağ müharibəsi dövründə azad edildikdən sonra bulaqda təmir işləri aparıldı və o yenidən insanların istifadəsinə verildi.

### Vaqifin türbəsinə ata-oğul həssaslığı

Bir zamanlar Şuşanın gözəlliyinə gözəllik qatan, təpədə göz olan Vaqif Məqbərəsi Şuşa işğalda olduğu dövrdə vəhşicəsinə dağıdılıb, yerlə-yeksan edilib. Hələ 1967-ci ildə Şuşada olarkən Heydər Əliyev Vaqifin məzarını ziyarət etmək istəyib, ancaq məzarı tapa bilməyib. Axtarış nəticəsində məzar tapılıb, Heydər Əliyev bərbad halda olan, dağılmış məzarı ziyarət edib, onun göstərişi ilə Vaqifin məzarı üstündə abidə və türbə tikilib.

Məqbərənin açılışı 1982-ci ildə olub, açılışda o zaman Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1-ci katibi olan Heydər Əliyev özü də iştirak edib. Şuşa şəhəri işğal ediləndə kompleksin binası məhv edilib, daşınması mümkün olan təxminən 80 eksponat isə qənimət kimi Ermənistana aparılıb. Şuşa işğaldan azad ediləndə məqbərənin yalnız daş divarları qalmışdı, böyük şairin məzarı vəhşicəsinə dağıdılmışdı. Ölkə başçısı bir zamanlar atasının göstərdiyi həssaslığı göstərdi, İlham Əliyevin göstərişi ilə məqbərə yenidən inşa edildi, Vaqifin məzarüstü abidəsi ikinci dəfə bərpa edildi. Taleyə bax, iki dəfə, iki bərpa, ata-oğul tərəfindən

Yuxarı Gövhər Ağa Məscidi də bərpa edilən abidələrdəndir. Məscid Şuşanın mərkəzi meydanındadır. Onun inşası 1850-ci ildə Pənahəli xanın tapşırığı ilə başlayıb, amma fasilələrlə tikilib. Xanın qızı Gövhər Ağanın yardımı ilə tikintisi 1883-cü ildə yekunlaşıb. İşğal dövründə məscidin daş divarlarınadək hər yeri dağıdılıb, əmlakı yağmalanıb. İşğaldan azad edildikdən sonra ölkə başçısının göstərişi ilə təmir edilərək istifadəyə verilib.

### Ermənilərin eybəcər hala saldıqları tarixi abidə bərpa edildi

Şuşa şəhərindəki Yaradıcılıq Mərkəzinin hazırkı binası ölkə əhəmiyyətli memarlıq abidəsi siyahısındadır. Binada vaxtilə Ağa Qəhrəman Mirsiyab oğlunun Karvansarası yerləşib. İşğal zamanı yerlə-yeksan edilib, yağmalanıb. Heydər Əliyev Fondu tərəfindən 2022-ci ildən aparılan bərpa işləri zamanı bina ilkin vəziyyətinə qaytarılıb. Sonradan edilən müdaxilələrlə bina çirkinləşdirilib, alçıpanla yeni qeyri-peşəkar arakəsmələr düzəldilib.

*Ardı Səh. 15*

# Sən belə deyildin əzəl, ay ŞUŞA!











**Əvvəli-Səh-14**

İşğaldan azad edildikdən sonra bağlanılan qapı, pəncərə, tavan və arakəsmə divarlar sökülərək binanın tarixi formasına qaytarılması işləri yerinə yetirilib.

İndi bina öz tarixi görünüşünü geri qazanıb, Mərkəzdəki ekspozisiya salonunda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində "Heydər Əliyev və Qarabağ" sərgisi açılıb. Sərgidə Ulu Öndər Heydər Əliyevin Qarabağda sosial, iqtisadi, siyasi və mədəni inkişaf istiqamətindəki xidmətlərini əks etdirən nadir fotoşəkillər, sənədlər və videomateriallar nümayiş olunur. Eləcə də sərgidə Ümummilli Liderin vaxtilə Qarabağa səfərlərinə, burada keçirdiyi görüşlərə, müxtəlif tədbirlərə aid fotolar yer alıb.

### Şuşada Avropa standartlarına uyğun otel

Şuşada "Qarabağ" hotelinin açılışı da oldu. 1980-cı ildə inşa edilən hotelin binası 1992-ci ilin mayında Şuşa şəhərinin işğalı nəticəsində öz fəaliyyətini dayandırıb və baxımsızlıqdan tamamilə yararsız vəziyyətə düşüb. Şuşa şəhəri Ermənistanın işğalından azad edildikdən sonra 2021-ci ildə Prezident İlham Əliyevin tapşırığına əsasən, hoteldə təmir-bərpa və yenidənqurma işləri həyata keçirilməyə başlandı. Müasir səviyyəyə çatdırılan hoteldə Şuşa şəhərinə səfər edəcək qonaqların rahatlığı üçün hər cür şərait yaradılıb.

Şuşada "Şuşa Otel-Konqres Mərkəzi" Kompleksi də inşa edildi. Karvansaray konseptini əsas götürərək, Şuşa şəhərinin mərkəzində, Zəfər yolunun üzərində yerləşəcək 5 ulduzlu "Otel və Konfrans Mərkəzi" müasir və milli memarlıq üslublarının sintezi ilə dizayn edilib. Mərkəz 2,8 hektar ərazini əhatə edir. Memarlıq adət-ənənələrini özündə əks etdirən xarici görünüşündə ornamental kompozisiyalar və milli memarlıq elementləri tətbiq edilib. Həmçinin fasadın üzlənməsində Şuşanın tarixi binalarının tikintisində işlənilən yerli daşdan istifadə olunub.

Bundan əlavə, mərkəzin eyvanları, şimal və cənub fasadları ənənəvi memarlıq quruluşunda, Şuşanın tarixi binalarının - XIX əsrə aid Zöhrabbəyovun evi, Üzeyir Hacıbəyovun ev-muzeyinin tikintisində istifadə olunmuş taxta tərkibli materiallardan hazırlanıb. Beş mərtəbədən və 150 nömrədən ibarət "Otel və Konfrans Mərkəzi"ndə otaqlar, restoranlar, konfrans korpusları, daxili həyətlər var.

### Şuşanın təhsil ocaqları bərpa edilir

Prezident İlham Əliyev Şuşa şəhərində yeni ümumtəhsil məktəbinin tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam da imzaladı. Sərəncama əsasən Şuşa şəhər 1 nömrəli 960 şagird yerlik tam orta məktəbin layihələndirilməsi və tikintisi məqsədilə Prezidentinin ehtiyat fondundan üç milyon manat vəsait ayrılıb. Artıq Soquvuşanda məktəb tikintisi başa çatıb. Ümumilikdə azad edilən ərazilərdə 197 məktəbəqədər təhsil müəssisəsi tikiləcək.

Məcburi köçkün məktəblərinin həmin bölgələrə köçürülməsi istiqamətində planlı işlər aparılır. 5-7 il ərzində Azərbaycanda standartdan kənar məcburi köçkün məktəbi anlayışı olmayacaq. Bundan əlavə artıq Şuşa Realnı Məktəbinin bərpasına başlanılıb.

### Xəstəxana yox, şəhərcik salındı

Şuşada 90 çarpayılıq Şuşa şəhər xəstəxanasının binasında da tikinti işləri davam edir. Şuşa şəhər xəstəxanasının təməli 2021-ci il noyabrın 7-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub. 3,7 hektara yaxın sahədə inşa edilən xəstəxana binasının tikinti işlərinə bu ilin yanvarında başlanılıb. Xəstəxana binası 4-ü dördmərtəbəli, 2-si isə birmərtəbəli olmaqla 6 korpusdan ibarətdir. Binanın zirzəmi hissəsindən stasionar tibbi xidmət və sığınacaq kimi istifadə olunacaq, zərurət yarandıqda hərbi hospital kimi fəaliyyət göstərəcək. Stasionar xidmət sahəsində qəbul, terapiya, pediatriya, cərrahiyyə, doğuş, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya–reanimasiya, hemodializ şöbələri fəaliyyət göstərəcək.

Ambulator xidmət sahəsində isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələri, həmçinin klinik diaqnostik laboratoriya yaradılacaq.

Xəstəxananın Təcili Tibbi Yardım Stansiyası müasir standartlara cavab verən və böyük vəsait tələb edən tibbi avadanlıqlar – 1.5 TL maqnit-rezonans tomoqrafiya və 32 kəsikli kompüter tomoqrafiya aparatları ilə təchiz olunacaq. Stansiyada hər növbədə dörd briqada fəaliyyət göstərəcək. Şuşa şəhər xəstəxanasının ərazisində, eyni zamanda, Gigiyena və Epidemiologiya Mərkəzi, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi, yoluxucu xəstəliklər və hemodializ korpusları inşa olunacaq.

"Şuşa nəinki Azərbaycanın, dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəkdir və buna nail olacağıq, 100 faiz əmin olun" – bu sözləri Şuşa azad olunandan sonra onu ziyarət edərkn Prezident İlham Əliyev demişdi. O dediyini etdi, Şuşa indi gözəlliyi ilə göz qamaşdırır. Sürətli abadlıq işləri, bərpa və yenidənqurma Şuşanı nəinki işğaldan sonrakı vəziyyətindən, hətta işğaldan əvvəlki vəziyyətindən də gözəl görkəmə gətirdi. Dağlar arxasındakı bu nazlı gəlin indi bütün dünyaya örnək olacaq bir şəhər olub.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
27 iyul
2023-cü il

# Cərimələrin artırılması hansı dəyişikliyə səbəb olacaq?

*Prezident İlham Əliyev 17 iyul tarixində İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliyi təsdiqləyib. Bu dəyişikliyə əsasən yol-hərəkəti qaydalarının pozulmasına görə cərimələrin miqdarı artırılıb.*



QURUM RƏSMİSİ AYDINLIQ GƏTİRDİ

Bəs gəlin görək, yeni qanun layihəsi qəzaların azalmasına necə təsir göstərəcək? Bu barədə Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin baş inspektoru, polis mayoru Araz Əsgərli SİA-ya danışıb: "Sürücülərlə bağlı yeni tətbiq edilən dəyişikliklər zərurətdən formalaşıb və məsuliyyətin dərinləşməsi üçün edilib. Belə ki, ağır yol-nəqliyyat hadisələrinin baş verməməsi üçün qanunvericilikdə məsələlərin mahiyyətinə yenidən baxılması qaçılmaz idi. Çünki edilən dəyişikliklərin hamısı kobud qayda pozuntuları üzərində aparılıb və elə həmin qayda pozuntularına münasibətdə İnzibati Xətalar Məcəlləsində sanksiyalar sərtləşib ki, həmin qayda pozuntuları birbaşa ölümlə, ağır yol-nəqliyyat hadisələri ilə nəticələnən bütün hadisələrin əsas səbəbləridir. Məsələn, hərəkət sürətini artıran sürücülərlə bağlı İnzibati Xətalar Məcəlləsinin 328-ci maddəsinin 1-ci və 2-ci hissəsinə dəyişiklik edilməyib. Yəni 10 və 50 manatlıq cərimələrdə heç bir dəyişiklik yoxdur, lakin 328-ci maddənin 3-cü və 4-cü hissəsində dəyişiklik edilib. Bu, o deməkdir ki, bu qədər sürəti artırıb nəqliyyatı idarə edən şəxsin hərəkətlərinin nəticəsi yalnız ağır fəsadlarla yekunlaşa bilər.

Narkotik vasitələrin təsiri altında idarəetmə ümumi sərxoşluq fonunda olan hissədən çıxarılıb və ayrı maddə kimi təsis edilib. Çünki narkotik vasitələr aludəçilik yaradır, onun təsiri altında nəqliyyat vasitələrini idarə edən şəxs islah olunmalıdır və bu proses daha fərqli formada yanaşma tələb edir. Buna görə də qanunvericilikdə həmin hissədə dəyişiklik edilərək yeni maddə təsis olunması kifayət qədər vacib yanaşma idi. Biz bunu uzun müddətdir aidiyyəti qanunvericilik orqanı qarşısında qaldırmışdıq, bu problemləri əsaslandırıb qanuna dəyişikliklər təklif etmişdik. Bu məsələlərə münasibət elmi-texniki, beynəlxalq təcrübə və mövcud vəziyyət dəyərləndirilməklə, yeni ayrı maddə kimi təsis edildi. Narkotik və psixatrop maddələrin təsiri altında avtomobil idarə etmək olduqca təhlükəli nüans idi və buna da yenidən baxıldı. Cəmiyyətdə müzakirələri istənilən formada aparmaq olar lakin həqiqət və əsl reallıq odur ki, biz yollarda həyatını və sağlamlığını itirən insanların taleyinə biganə qala bilmərik. Qaydaları pozmadığı təqdirdə onun sanksiyası nə qədər artırılsa da heç kim buna görə narahat olmamalıdır. Qaydaları pozmayıb qanunun aliliyini dərk edən istənilən şəxs üçün bu cür dəyişikliklərin heç bir əhəmiyyəti yoxdur. Qanunlara hörmət etməyən özünü və ətrafını təhlükəyə atanlar isə yəqin ki bir daha düşünməli və məsuliyyətli olmağa çalışmalıdır".

*A. Naibli*

## Bu aktyor bir reklam paylaşımına görə 170 min manat qazanır

*Türkiyədə aktyor və müğənnilərin reklamlardan qazandıqları pulları medianın gündəmindən düşmür. Qardaş ölkə mediasının budəfəki hədəfi aktyor Burak Özçevitdir. Medianın yazdığına görə, aktyor öz sosial şəbəkə hesabından bir reklam paylaşımına görə 170 min 320 manat pul qazanır.*



## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## Sintetik geyimlərin zərərləri BƏLLİ OLDU



Pambıq materiallardan hazırlanan geyimlərin sintetik geyimlərdən daha yaxşı olduğu hər kəsə məlum olsa da, sintetik geyimlərdən yaxa qurtarmaq mümkünsüzdür. Çünki müasir dövrdə sintetik parçaların hazırlanması təbii materiallardan daha az vaxt və vəsait tələb etdiyinə görə daha ucuzdur və əlçatandır. Bəs sintetik parçaların insana nə kimi zərərləri var?

Dermatoloq Bəxtiyar Paşayev SİA-ya sintetik parçaların dəriyə zərərlərindən danışıb: "Çox vaxt poliester, neylon, akril və spandeks kimi materiallardan hazırlanan sintetik geyimlər dəriyə həm müsbət, həm də mənfi təsir göstərə bilər. Bəzi insanlar sintetik parçalara yaxşı dözə bilsələr də, digərləri fərdi xüsusiyyətlərinə görə dəri ilə bağlı müxtəlif problemlər yaşaya bilərlər.

Sintetik paltarların dəriyə potensial zərərləri bunlardır: Dərinin qıcıqlanması və allergiyası. Sintetik parçalar çox tərləməyə gətirib çıxarır və bununla da dəridə nəm və istiliyi saxlayır, bakterial böyümə və göbələk infeksiyaları üçün əlverişli mühit yarada bilir. Bu materiallarla uzun müddət təmas qıcıqlanma, kontakt dermatit kimi vəziyyətlərə gətirib çıxara bilər və ya mövcud dəri allergiyasını şiddətləndirə bilər.

Sintetik parçaların nəfəsalma qabiliyyəti zəifdir. Sintetik materiallar pambıq və ya kətan kimi təbii liflərdən daha az nəfəs alır. Bu təneffüs çatışmazlığı dəridə həddindən artıq tərləmə və nəm yığılmasına gətirib çıxara bilər ki, bu da narahatlıq və dərinin qıcıqlanmasına səbəb ola bilər. Sintetik parçalar təbii liflərdən daha aşındırıcı ola bilər, dəri ilə təmasda sürtünməyə səbəb olur. Bu, xüsusilə həssas dərisi olanlar və ya daimi sürtünmənin olduğu yerlərdə, məsələn, qoltuqaltı və ya bud arasında olanları narahat edə bilər. Daha əvvəl də qeyd edildiyi kimi, sintetik parçaların nəm saxlama xüsusiyyətləri bakteriya və göbələklərin inkişafı üçün ideal mühit yarada bilər. Bu, follikulit (saç follikullarının infeksiyaları) və ya dərinin göbələk infeksiyalarına yoluxmasını asanlaşdırır".

Həkim bəzi dəri xəstəliklərinin ağırlaşması barədə də xəbərdarlıq edib: "Ekzema və ya pullu dəmrov kimi əvvəlcədən mövcud dəri xəstəlikləri olan insanlar, sintetik paltarların artan qıcıqlanma və nəfəsalma qabiliyyətinin azalması kimi yuxarıda qeyd olunan amillərə görə onların vəziyyətini daha da ağırlaşdırdığını görə bilərlər. Bəzi şəxslər sintetik parçaların istehsal prosesində istifadə olunan kimyəvi maddələrə qarşı həssas ola bilər. Qalıq kimyəvi maddələr parça üzərində qala bilər və dəri ilə təmasda ola bilər, qıcıqlanmaya və ya allergik reaksiyalara səbəb ola bilər. Sintetik materiallar eyni zamanda, dərədə narahatlıq və qıcıqlanmaya səbəb ola biləcək statik elektrik yaratmağa meyillidir".

"Qeyd etmək vacibdir ki, sintetik paltarların dəriyə təsiri insandan-insana dəyişə bilər. Bəzi insanlar əhəmiyyətli problemlər yaşaya da, digərlərində nəzərəçarpacaq problemlər olmaya bilər. Sintetik paltarların dərinizə mənfi təsir etdiyini görsəniz, daha nəfəs ala bilən və qıcıqlanma və ya allergik reaksiyalara səbəb olma ehtimalı az olan təbii liflərə üstünlük verin. Bundan əlavə, düzgün gigiyena qaydalarına riayət etmək və paltarlarınızın təmiz olmasını təmin etmək sintetik parçaların bəzi potensial zərərli təsirlərini azaltmağa kömək edə bilər", - B. Paşayev bildirib.



HƏKİM DANIŞDI

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000